# Paralel

www.paralel.az

İctimai-siyasi qəzet

2 mart 2023-ci il

№ 054 (3622)
Qiymәti 50 qәpik


Gün-Xəbər



## Prezidentin xarici diplomatlarla görüşü

Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak etmək üçün ölkəmizə səfərdə olan Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç ilə görüşüb. Görüşdə Azərbaycan ilə Bosniya-Herseqovina arasında siyasi münasibətlərin çox yaxşı səviyyədə olduğu qeyd edilib.

Həmçinin dünən Prezident Bakıda keçiriləcək beynəlxalq tədbirdə iştirak üçün Azərbaycana gəlmiş Beynəlxalq Miqrasiya Təşkilatının Baş direktoru Antonio Vitorinonu qəbul edib. Görüşdə azərbaycanlı mütəxəssislərin Beynəlxalq Miqrasiya Təşkilatında və BMT-nin digər strukturlarında təmsilçiliyinin artırılmasının vacibliyi bildirilib.

## AI təmsilçisi: Xocalıdakı görüş ümidvericidir

***"Bugünkü Xocalı görüşü ümidvericidir".***



Bu barədə Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar tviterdə yazıb.

***"Bu gün Xocalıdan Bakı və Qarabağ ermənilərinin nümayəndələri arasında təmaslar barədə ümidverici xəbərlər gəlib. Müzakirələrin həm aktual məsələlərə, həm də daha geniş məsələlərə yönəldilməsi yaxşı haldır",*** - o, qeyd edib.

# Ermənistan illərdir sülhə mane olur

**ABŞ Konqresinin Nümayəndələr Palatasının demokrat üzvü, Azərbaycan üzrə İşçi Qrupun həmsədri, Tennesi ştatını təmsil edən Stiv Kohen (Steve Cohen) Xocalı Soyqırımının 31-ci ildönümü ilə əlaqədar bəyanat yayıb.**

Konqresmenin imzaladığı bəyanatda Xocalı soyqırımı haqqında müfəssəl məlumatlar yer alıb: ***"Azərbaycanın Qarabağ bölgəsində yerləşən Xocalı bir vaxtlar 7 000 insanın xoşbəxt yaşadığı şəhər idi. Bu, Ermənistanın etnik azərbaycanlıların, mülki əhalinin yer üzündən silinməsinə yönəlmiş ən böyük qətliamı idi. 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri 600-dən çox silahsız insanı, o cümlədən 106 qadını, 63 uşağı, 70 qocanı qətlə yetirərək yüzlərlə insanı girov götürüb. Qətliam nəticəsində 100-dən çox uşaq valideynlərini, 25 uşaq isə hər iki valideynini itirib və ən az 8 ailə tamamilə öldürülüb"***-məlumatda deyilir. Konqresmen qeyd edib ki, iki ölkə arasında 1994-cü ildən atəşkəs əldə olunsa da, Ermənistan barışcıl mövqedən uzaq addımlar atıb, illərdir bölgədə sülhün bərqərar olmasına mane olur. Sənəddə Azərbaycanın Cənubi Qafqazda sülhün və sabitliyin mövcudluğu üçün səylərindən bəhs olunub.



## Rusiya ilə münasibət yeni mərhələdə



**Lavrovun ölkəmizə səfəri zərurətin nəticəsidir**

Səh.3

## Nə qədər ki, xəzinədar ədalətsizdir



**Çöhrələrdəki gülüşə həsrət qalacağıq!**

Səh. 6

## "İt günündə" olan hüquqlarımız



**Bu gün-sabah «Formula1» başlayacaq, bəs onda neyləyəcəksiniz?**

Səh. 5

2 mart 2023-ci il
www.paralel.az
e.mail adresi: paralel_qazeta@mail.ru





## “QİYAMƏT GÜNÜ” RUSİYA YAXINLIĞINDADIR!

### ABŞ-dan Rusiyanın “nüvə şantajı”na adekvat cavab

**Fevralın 28-də ABŞ ordusuna aid “E-6B Mercury” təyyarəsi Avropa ölkələrindən birinə eniş edib.**

Bu məlumat ABŞ-ın Avropadakı hərbi komandanlığının rəsmi “Twitter” səhifəsində yayılıb.

Qərb mətbuatının da yazdığı kimi, bu təyyarənin digər adı “Qiyamət günü” təyyarəsidir. Belə ki, hərbi hava komanda məntəqəsi sayılan “E-6B Mercury”-nin əsas funksiyası ABŞ-a aid strateji nüvə silahı daşıyıcıları olan kreyserlərin və sualtı qayıqların fəaliyyətinin əlaqələndirilməsidir. Söhbət daha çox “Ohio” sualtı qayıqlarından gedir. Bu qayıqların hər birinin arsenalında 24 ədəd “Trident II D5” tipli nüvə başlıqlı qitələrarası ballistik raket var.

“Qiyamət günü” təyyarəsinin özünün xarakteristikasına gəlincə, bu, “Boeing 707-320” sərnişin təyyarəsinin modifikasiya edilmiş nüsxəsidir. 12.8 kilometr hündürlükdə 11 min 760 kilometr məsafəyə uça bilən bu təyyarələrin sürəti saatda 981 kilometrdir.

Xəbərdə o da qeyd olunur ki, sözügedən təyyarənin komanda heyətini ABŞ-ın İslandiyadakı səfiri qəbul edib.

Belə görünür ki, ABŞ bu addımı ilə Rusiyanın “nüvə şantajı”na ciddi yanaşdığını göstərməklə yanaşı, hadisələrin istənilən gedişinə hazır olduğunu da nümayiş etdirir.

# A.Apitonyan: "Təhlükəli oyunlar oynayırıq!"

**Son günlər Rusiya rəsmilərinin İrəvanın Qərbə doğru açıq şəkildə istiqamətlənməsini tənqid edən açıqlamaları çoxalıb. Dünən Bakıda olan Xarici işlər naziri Sergey Lavrov da Ermənistanın avropalıları ”mülki missiya” qismində regiona daşımasını qınadı.**

Bu gün isə ”Sputnik”də Xarici işlər nazirinin keçmiş müavini Artak Apitonyan İrəvanın nümayişkaranə şəkildə qərbyönümlü siyasəti yürütməsi ilə bağlı maraqlı müsahibəsi dərc edilib. O, belə hesab edir ki, İrəvan hazırda Rusiya ilə Avropa İttifaqı arasında yaranmış ziddiyyətlər üzərində oynayır. Bu isə ölkə maraqları üçün təhlükəlidir.




Keçmiş diplomat Avropa monitorinq missiyasının regiona gəlişi və erməni siyasətçilərin rusiyalı tərəfdaşları ilə arzuolunmaz polemikalarının sonunu yaxşı görməyib. Ermənistan Qərb və Rusiya vektorlarını birləşdirməyə deyil, əksinə, onlara qarşı durmağa çalışaraq təhlükəli yola qədəm qoyub.

***"Vaxtilə biz komplementarizmə sadiq qaldıq. Anladıq ki, qlobal güc mərkəzlərinin regionda öz maraqları var. Ermənistan bir tərəfdən Rusiya ilə müttəfiqlik münasibətlərini inkişaf etdirdi, digər tərəfdən Avropa İttifaqı ilə əməkdaşlığı gücləndirdi, müqavilə, razılaşmalar və s. də imzaladı. Biz onların antaqonizmi deyil, bu maraqların birləşməsi üzərində işləmişik. İlk növbədə regiondakı ölkələr böyük aktorların maraqlarının toqquşmasından əziyyət çəkirlər",*** - Apitonyan qeyd edib.

İndi isə problem ondadır ki, erməni tərəfi Moskva ilə Qərb paytaxtları arasındakı ziddiyyətlərdən istifadə etməyə çalışır. Bu isə heç İrəvann özünə də xeyir gətirmir. Yəni eks-diplomat ziddiyyətlərin Ermənistanın özünə qarşı işləməyə başladığını iddia edib. O xəbərdarlıq edib ki, heç bir halda böyük aktorların ziddiyyətlərini ”özünə çəkmək”, cəlb etmək olmaz.

Apitonyan onu da vurğulayıb ki, ölkəsi heç vaxt Rusiya ilə müttəfiqlik münasibətlərinin bütün potensialından tam istifadə etməyib. O, xəyali xarici siyasət balansını saxlamaq üçün bəzən öz maraqlarını qurban verən Ermənistanı qorxaq siyasət yürütməkdə ittiham edib. Keçmiş xarici işlər nazirinin müavininin fikrincə, İrəvanın xarici siyasətində iddialılıq və cəsarət olmayıb: ***"Əgər tərəfdaşlar bizə güvənir, rəğbət bəsləyirlərsə, o zaman biz bu lütfdən mövqelərimizi artırmaq üçün istifadə etməliyik və əlimizdə olanlarla məhdudlaşmamalıyıq. Biz proqnozlaşdırıla bilən, eyni zamanda qətiyyətli olmalıyıq".***

Təcrübəsinə əsaslanan eks-diplomatın qənaətincə bu gün Ermənistanın ətrafında təhlükəsizlik mühitinin yaxşılaşdırılması təkcə mahir diplomatiya və yumşaq güc deyil, həm də sərt güc tələb edir.

- Daxili təşkilatlanma lazımdır və Ermənistanda cəmiyyət ölkənin müharibə vəziyyətində olduğunu hiss etməli, hər bir proses bu məntiqə tabe olmalıdır. Biz növbəti müharibəyə hazırlaşmalıyıq. Təəssüf ki, bu olacaq. Müharibəyə demək olar ki, heç bir şübhəm yoxdur. Cəmiyyətimiz yuxusuzluq vəziyyətindədir və bu mütləq bu durumdan çıxmalıyıq. Mən razıyam ki, bu, daimi gərginliklər və daimi streslərdir. Lakin gərgin vəziyyətdə qüvvələrin, resursların səfərbər edilməsi həmişə daha yaxşı və sürətli olur. Təbii ki, müdafiə qabiliyyətimizi gücləndirmək üçün nələrsə edilir, lakin bu kifayət deyil. İctimai səfərbərlik, müdafiə strategiyasına yenidən baxılması lazımdır - o, qeyd edib.

Apitonyan son illər Bakıya qarşı qərəzli siyasət yürüdən Tehranı da unutmayıb. O, müdafiə sistemini gücləndirmək üçün Rusiyadan əlavə geniş potensial kimi İranla qarşılıqlı fəaliyyəti misal çəkib. Müsahibədə qeyd edilir ki, 44 günlük müharibə başa çatdıqdan dərhal sonra Ermənistanın İslam Respublikası ilə hərbi-siyasi əməkdaşlığı intensivləşdirmək imkanları olub. Hətta ABŞ-dan bu addıma görə heç bir təpki də almayacaqdılar. Onda konyuktura da başqa idi.

***"Həm də nəzərə alsaq ki, Türkiyə indi öz daxili problemləri ilə məşğuldur, Ermənistan bundan istifadə edib regional siyasətində müəyyən korrektələr edə bilər. Siyasət özü mövcud imkanlardan istifadə etmək və yeni imkanlar yaratmaq deməkdir",*** - eks-diplomat Ankaraya qarşı xain açıqlaması ilə də seçilib.

***Tural Tağıyev***

# İran hakimiyyəti Təbrizdəki Azərbaycanşünaslıq Mərkəzini bağlayıb

**İran hakimiyyəti Güney Azərbaycanın Təbriz şəhərindəki universitetdə fəaliyyət göstərən Azərbaycanşünaslıq Mərkəzini bağlayıb.**

Bu barədə mərkəzin sosial şəbəkədəki səhifəsində bildirilib. Məlumata görə, Tehran rejimi Azərbaycanşünaslıq Mərkəzinin fəaliyyətini dayandırmaqla yanaşı, onun üzvlərinə qarşı təzyiq və təqibləri də artırıb. Vurğulanıb ki, mərkəzin Təbrizdən olan iki üzvü Hadi Heydəri Azad və İbrahim Əhmədpur fevralın 27-də həbs olunub.

Sosial mediada *"Təbriz Universitetinin hər yeri Azərbaycanşünaslıq Mərkəzidir"*, paylaşımı edilib.

Qeyd edək ki, Tehran rejimi əvvəllər də bu mərkəzin üzvlərinə qarşı təzyiqlər göstərib, təqib edib. Bir neçə il əvvəl Təbriz Universitetinin Əkinçilik və kənd təsərrüfatı fakültəsinin tələbəsi Əfsanə Toqir həbs edilmiş, işgəncəyə məruz qalmışdı.



Xatırladaq ki, Azərbaycan Respublikasında İran səfirliyinin Mədəniyyət Mərkəzi, habelə İranşünaslıq adı altında bir sıra mərkəzlər fəaliyyət göstərir.



## Elektrik enerjisinin qiyməti bahalaşacaq

Xəbəriniz olsun ki, Milli Məclisdə “Elektroenergetika haqqında” yeni qanun layihəsi müzakirəyə çıxarılıb. Qanun qəbul olunacağı təqdirdə “Azərişıq” ASC elektrik enerjisinin nə satışı, nə də alışı ilə məşğul olmayacaq, bu qurumda yalnız paylaşdırma funskiyası saxlanılacaq. Enerjinin hasilatını ”Azərenerji” ASC həyata keçirəcək, satışla özəl şirkətlər məşğul olacaq, bir sözlə ”Barmek dövrü”nə qayıdırıq. Bu qayıdış hansı təsir və nəticələr doğura bilər, indidən yazım ki, siz də agah olun.

Böyük ehtimalla satışın özəl şirkətlərin idarəçiliyinə verilməsi prosesinə başlamadan öncə enerjinin satış tarifləri qaldırılacaq və hakimiyyət bunu investor marağının artırılması ilə izah edəcək. İkinci mərhələdə özəl şirkətlər adı ilə sağlam investor deyil, hakim ailənin və onların ortaqları bu prosesə cəlb olunacaq və sonra da bazarda qiymətlər liberallaşdırılacaq, yəni enerjinin satış qiymətləri 2 mərhələdə artırılacaq və diversifikasiya olunacaq.

Bu dəyişiklikdən istehlakçılar satış bazarında keyfiyyətli xidmət göstəriləcəyi təqdirdə uduş əldə edə bilərlər. Keyfiyyətli xidməti yalnız rəqabətli bazarda fəaliyyət göstərən şirkətlər göstərərə bilər. Amma, indiki şərtlərlə imkan verməzlər ki, Barmekə oxşar şirkət bazara girsin və sonra da hakimiyyətə məhkəmədə dava açsın. Odur ki, istehlakçıları uduşlar deyil, tariflərin bahalaşmasından itkilər gözləyir. Halbuki, dəyişikliyin hədəfində investisiya öhdəliyi götürən sağlam biznes dayanarsa, bazarda rəqabət təmin edilərsə bu enerji sektorunda irəliyə doğru atılmış addım olardı. Amma, bu hakimiyyətin xislətinə bələd olduğuma görə onlardan belə gözləntim yoxdur. Siz də nağıllara inanmayın.

***Qubad İbadoğlu***

# SAVAŞIN BİR İLİ TAMAM OLDU: PUTİN NƏLƏRİ QAZANMAQ İSTƏYİRDİ, NƏLƏRİ İTİRDİ?

*- Ukraynanı işğal hərəkatı Putinin ilk cinayəti deyil: Çeçenistanı xaraba qoydu, Gürcüstanın bir hissəsini ələ keçirdi, Krımı, Donbası, Suriyanı işğal etdi, dişi qana batdı;*

*- SSRİ-ni bərpa etmək istəyir, Rusiyanı parçalanmaqdan qorumağın yollarını axtarırdı - bu gün Rusiyanın gələcəyi müzakirə olunur;*

*- Ukrayna xalqı yoxdur deyirdi - Ukrayna xalqını millətə çevirdi;*

*- Biz slavyanıq, birik, qardaşıq deyirdi - iki qardaşı düşmən etdi, günahsız insanları öldürdü, parçaladı;*

*- Ukrayna ordusunu yox sayırdı - bu gün savaşda formalaşmış, cəsur Ukrayna ordusu var;*

*- Ukrayna dövləti yoxdur deyirdi - Ukraynanı dövlətləşdirdi;*

*- Putinin ən güclü silahı qorxutmaqdır - Ukrayna xalqı cəsarət neməti ilə bu silahı yox etdi;*

*- Putin hər şeyi bildiyini zənn edirdi - iki addım irəlini görə bilmədiyi üzə çıxdı, o, diktatordur, üstün irq anlayışına sahibdir, zamanı oxuya bilmir, dövrün ruhunu anlamaq imkanı yoxdur;*

*- Ukraynadakı rus xalqını qoruyacağını iddia edirdi - Ukraynanın ruslar yaşayan bölgələrini bombalayır;*

*- Rusiya dünya dövləti olacaq deyirdi - bu gün Rusiya ənənəvi təsir məkanlarını da itirir;*

*- Rus ordusu dünyanın ən güclü ordusudur deyirdi - "Moskva" savaş gəmisini - Rusiyanın yenilməzlik simvolunu qoruya bilmədi;*

*- Dünyaya meydan oxuyurdu - Rusiya mifinə son qoyuldu;*

*- Putin dünyadan Rusiyaya yeni pay (ərazi) alacağını deyirdi - dedilər ki, sənin payın onsuz da çoxdur;*

*- Ukrayna NATO-ya üzv olmasın deyirdi - Ukrayna NATO-ya getməsə də, NATO Ukraynaya gəldi;*

*- Ukrayna Avropa İttifaqına üzv olmamalıdır deyirdi - Ukraynanın Avropa İttifaqına üzvlüyünün yolu açıldı;*

*- NATO sərhəddimizdən çəkilməlidir deyirdi - 1814-cü ildən başlayaraq heç bir ölkə ilə savaşmayan İsveç, Çar Rusiyasından ayrılmış Finlandiya NATO-ya üzv olmağa hazırlaşır;*

*- Avropa Birliyini enerji şantajı ilə parçalayacağını düşünürdü - birləşdirdi, İsveçrə belə neytrallığını pozdu;*

*- Üç günə Ukraynanı işğal edəcəyini planlaşdırmışdı - geri çəkildi, Donbasda ilişib qaldı;*

*- Ukrayna xalqını faşistlərdən xilas edəcəyini söyləyirdi - bəlli oldu ki, özü faşistdir, günahsız Ukrayna xalqını öldürür;*

*- Ordumun məqsədi barışı təmin etməkdir deyirdi - ordusunun quldur dəstəsi, zalım, bəbək qatili olduğu açıq göründü;*

*- Zelenskiyə faşist deyirdi, onu devirəcəyinə, qaçmağa məcbur edəcəyinə arxayın idi - Zelenski ilə görüşə biləcəyini söyləyir, barış yolu axtarır, bu gün Zelenski şərə qarşı savaşın simvoludur;*

*- Bütün Ukraynanı işğal edəcəyinə əmin idi - Donbasa yönəlməyə məcbur oldu;*

*- Ukraynanın silahsız dövlət olmasını tələb edirdi - Ukrayna ordusu ən müasir silahlara sahib oldu;*

*- Təsir məkanında olan dövlətlərin ona dəstək verəcəyinə inanırdı - Belarusdan başqa kimsə yaxın durmadı;*

*- İqtisadi gücünə arxayın idi - dünyadan təcrid olundu, hər gün milyonlarla pul itirir, ağıllı, istedadlı insanlar Rusiyanı tərk edir;*

*- Dünyanı nüvə silahı ilə qorxudurdu - dünya bunu Rusiyanın zəifliyi kimi dəyərləndirdi;*

*- Pyotr Avropanın qapılarını Rusiyaya açdı, dedi ki, Rusiya Avropa dövlətidir - Putin bu qapıları bağladı;*

*- Rus xalqına Rusiya dünya dövləti olacaq müjdəsini verirdi - rus xalqı totalitarizmin faciəsini görməyə başladı;*

*- Ukraynanın enerji obyektlərini sıradan çıxarmaq, bu yolla xalqla hakimiyyəti, Avropa ilə Ukraynanı, Avropa xalqları ilə onların siyasi hakimiyyətlərini üz-üzə qoymaq istəyirdi - xalq Ukrayna hakimiyyətinin ətrafında sıx birləşdi, ABŞ və Avropa Ukraynaya daha çox hərbi yardım etməyə başladılar;*

*- Rusiyanın inkişaf etmiş dövlət olduğunu söyləyirdi - onun nə dərəcədə geri qaldığı, cəhalət içində boğulduğu, siyasi, hərbi, əxlaqi, iqtisadi, mənəvi çöküş yaşadığı üzə çıxdı;*



Siracəddin Hacı

# Rusiya ilə münasibət yeni mərhələdə

## Lavrovun ölkəmizə səfəri zərurətin nəticəsidir



Tapdıq ABBAS
Baş redaktor,
"Əməkdar mədəniyyət işçisi",
Pedaqoji fəlsəfə doktoru,
Qarabağ müharibə veteranı
t.abbas1952@list.ru

Rusiyanın forpostu, oyuncaq Ermənistanın Rusiyaya qarşı dönük çıxması Rusiyanı Azərbaycanla daha sıx əməkdaşlığa məcbur edir. Rusiya iki yüz ildə çox zülm etdiyi Azərbaycanla hazırda isti münasibət qurmaq zorundadır. Nikol Paşinyanın Qərbin dəstəyilə hakimiyyətə gəlməsi və Ermənistanı Rusiyanın nəzarətindən çıxarıb Qərbə doğru çəkməsi Rusiyanı Cənubi Qafqaz siyasətində düzəliş etməyə sövq edir .



Rusiya XİN rəhbəri S. Lovrovun fevralın son günlərində Azərbaycana səfərini Rusiya ilə Azərbaycan arasında imzalanmış strateji müttəfiqlik sazişinin ildönümü ilə bağlı olduğu elan edilsə də, səfər zamanı əsas müzakirə mövzusu iki ölkə arasında münasibətlərin inkişafı, Rusiyanın Ermənistana və Azərbaycana perspektiv münasibəti daha əhatəli yer tutdu.

Avropa İttifaqının iki yüz nəfər kontingentinin fevralın 20-də Ermənistana gətirilməsi Rusiya ilə Ermənistan arasında münasibətləri gərginləşdirib və dramatik yön alıb.

Lavrov-Əliyev görüşünün təfərrüatı ictimaiyyətə tam açıqlanmasa da, görüşdə Rusiya ilə Azərbaycanın daha da yaxınlaşması Ermənistanın isə təkləndiyi qənaətinə gəlmək olar. Lavrovun Bakıya səfəri və Azərbaycan prezidenti İlham Əliyevlə görüşündə gedən 1 saatlıq müzakirədən sonra yalnız bu nəticəyə gəlmək olar.

Ermənistanın Avropa İttifaqı müşahidəçilərini dəvət etməsi təbii olaraq, Rusiyanı Azərbaycanla yaxınlaşmağa məcbur edir. Hər iki dövlət arasında mövcud olan siyasətə yeni redaktələr edilir.

Dünyada indiyədək Rusiyanın forpostu kimi tanınan Ermənistan ondan imtina edir, Ermənistan vasitəsilə Qərb Cənubi Qafqaz regionuna girir, bu isə, onu göstərir ki, Rusiya Ermənistanla münasibətlərin üzərindən xətt çəkməyə doğru gedir.

Cənubi Qafqaz regionunda vəziyyətin ağır olduğu bəllidir. Ermənistanın və Azərbaycanın hansı siyasət apardıqlarını Rusiya yaxşı başa düşür. Rusiyanın müdaxiləsilə düşmən olan hər iki dövlət Qərbə inteqrasiya etməyə can atır. İlham Əliyev əsasən, Ermənistanın düşmənçiliyinə qarşı siyasət aparır, Ermənistan həm Azərbaycanın, həm də Rusiyanın əleyhinə gedir.

2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsindən sonra, artıq ikinci dəfə Rusiya və Azərbaycanın regional təhlükəsizlik maraqları üst-üstə düşür. Təsadüfi deyil ki, İlham Əliyev Lavrovla görüşdə dedi ki, 2023-cü ilin sülhə doğru dönüş ili olacağını, siyasi dialoq, nəqliyyat, ticarət və digər sahələrdə ciddi qarşılıqlı addımlara ümid etdiyini ifadə etdi. Müttəfiqlik və qarşılıqlı fəaliyyət haqqında bəyannamənin 1 illiyini təsadüfi olaraq yada salmadı.

İlham Əliyevlə görüşdə S. Lavrov Putinin adından belə bir ifadə işlətdi ki, Azərbaycanla Rusiya həm də qlobal əhəmiyyətli meqalayihələri müzakirə edir, hər ikimizin dostları da bu layihələrə maraq göstərir. Bu, Azərbaycan və Rusiyanın lider ölkələr olaraq iştirak etdikləri regionun perspektivlərini göstərir.

Hər iki ölkə rəhbərlərinin ifadələrindən aydın göründüyü kimi, regionun perspektiv inkişafında Ermənistan daha nəzərə alınmır.

Ehtimal etmək olar ki, Qarabağ problemlərinin həllində Rusiya öz siyasətini bundan sonra daha çox Azərbaycanla əlaqəli quracaq. Kreml fərqindədir ki, hazırda Paşinyan Fransa əsgərlərini Ermənistana gətirdisə, gələcəkdə Qarabağa, Xankəndinə gətirməyə cəhd edəcək.

Hər iki ölkə rəhbərliyi, xüsusən Ukrayna üzərindən Qərblə müharibə aparan Rusiya hazırda Azərbaycanla regional siyasətin daha ciddi, sıx əlaqəli şəkildə yerinə yetirilməsinə ciddi ehtiyac olduğunu hiss edir...

Ukrayna ilə müharibə şəraitində Azərbaycanın Rusiya ilə strateji əməkdaşlığının Qərb dövlətləri tərəfindən pis qarşılandığı çoxdan məlumdur. Lakin Qərb dövlətləri regionda ağalıq edən Rusiyaya qarşı Azərbaycanın aqressivlik nümayiş etdirməsinin ölkəmiz üçün mənfi nəticələr verəcəyini də nəzərə alırlar. Yaxud hələlik Rusiyanın nəzarətindən çıxıb, Azərbaycan Qərbə inteqrasiyaya can atdığına görə, ölkəmizlə münasibətləri kəskinləşdirməyi vacib saymırlar.

Bu isə, o demək deyil ki, Qərb ölkələri Azərbaycan hakimiyyətini siyasi fəaliyyət baxımından normal ölkə kimi qəbul edir. Qərbin bütün ictimai-siyasi təşkilatlarının hesabat və bəyanatlarına nəzər yetirsək, Azərbaycan dövlətinin avtoritar rejim tərəfindən idarə olduğu, insan hüquq və azadlıqlarının, demokratiyanın boğulduğu, azad söz və müstəqil medianın inkişafına imkan verməyən ölkələr sırasına daxil edildiyini görürük.

Münasibətlərdən aydın görünür ki, Qərb dövlətlərinin hazırkı hədəfi dünya avtokratiyasının dayaqlarından olan Rusiyadır. Ukrayna-Rusiya müharibəsində birinciyə hər cür dəstək verən Qərb dövlətlərinin məqsədi Avroasiyanın yarısından çoxunu istismar edən Rusiyanı çökdürməkdə qərarlıdır.

Rusiya çökdükdən sonra isə, regionda baş verəcək dəyişikliklərin Azərbaycanı da əhatə edəcəyinə heç kim şübhə etmir.

**Azərbaycanın hazırkı durumu nəfəsi kəsilməkdə olan əjdahanın ağzından qurtulmaq istəyən canlının durumu ilə eyniyyət təşkil edir. Rusiyanın çöküşü, digər region ölkələrilə yanaşı, Azərbaycanın da azad və müstəqil dövlət kimi inkişaf etməsinə təkan verəcəkdir.**

2 mart 2023-ci il
www.paralel.az
e.mail adresi: paralel_qazeta@mail.ru




Nigar Orucova

# Var olmaq!

## Ədalət naminə...

Ədalət hissinin çoxlarını tərk etməsi qənaətinin hasil olduğu məqamda fərqli hadisələr yaşandı. Ölkəmizdə bu, birbaşa olmasa da, cəmiyyətimiz ona yekdilliklə qoşuldu.

Türkiyədə baş verən dəhşətli zəlzələdə itkilərlə bağlı vətəndaşlarımızın, soydaşlarımızın sərgilədiyi münasibəti yada salıram. Bu, bütün ictimaiyyətə bəlli olan məsələdir, ona görə təfərrüatlara varmıram...

Lakin mənəviyyata bağlı şübhələrin bir an içində necə dəyişdiyini deməyə bilmərəm. Elə məlum hadisələylə bağlı müxtəlif rakurslarda müşahidə edilən, görünən, göstərilən münasibətin bir neçəsinə nəzərən, bu yüksək, ali hissin hələ də yaşadığını, ölmədiyini söyləmək olar.

...Kimsə ürəyini tutubsa, bu, heç də şəxsin ürək xəstəsi olduğunu söyləməyə əsas verməz. Hər hansı bir adam kobud və yaxud əksinə görünə bilər, amma bu, onun doğrudan da "ürəksiz" və ya tərsinə olduğu anlamı vermir. İnsanlar müxtəlif, hal-xasiyyət cürbəcür, elə yanaşmalar, münasibətlər də fərqlidir. "Qurunun oduna yaş da yanır"sa, əbədi cəmiyyətimizin əzəli probleminin hadisələrdə üzə çıxan əksliyini də söyləməliyik. Ədalət naminə.

Bəli, məhz bu məqamdır ki, dünya durduqca, insan oğlu var olduqca, ədalət də olacaq. Olmasa, insanlıq da məhv olacaq. Çünki istər fərdi, istərsə də küll şəklində olsun, ədaləti olmayanın şəxsiyyəti də natamamdır...

Bir məişət tablosu təsəvvür edək, orda "kiçik dövlət" adlandırdığımızn başında dayananın ədaləti olmazsa, ailənin varlığı, dayanıqlığı da şübhə altına düşür. Çünki gec-tez, ədalətsiz davranışın, haqsız münasibətin sonu onun dağılmasına, orda məskunlaşanların, bəli, məhz məskunlaşanların o yuvanı tərk edib getməsinə gətirib çıxaracaq. Ədalətsizliyin meydan suladığı heç bir məkanda müsbət ab-hava, aura ola bilməz, onun sonu hamıya məlumdur. Haqqı itirən, haqqa tapına bilməz, müdriklər demiş...

...Bir azyaşlı uşaq tanıyıram, tanıdığım gündən də onun ədalətli mövqeyinə heyranam. Ağlı kəsəndən qohumda-qonşuda, ətrafında olan yaşıdlarına qarşı həmişə nümunəvi davranışda olub. Onun fantaziyasına bələd olduqca, fikirlərini dinlədikcə, heç də on iki yaşlı bir uşaq olduğuna inana bilmirsən. Lakin o, doğrudan da bu illərin yetirməsidir, fəqət illərin içində onu yetirənlərin də əməyini danmaq haqsızlıq olar. O isə əməyi itirməyənlərin tam bir ədalət mücəssəməsidir. Onun gələcək peşəsini indidən təsəvvür etmək olar, sanıram, haqsızlığın yenmədiyi cəmiyyətə də yaşam durduqca, ədalət qoruyucuları gərək olacaq...

Küçədə-yolda, bayır-bacaqda dilsiz-ağılsız canlılara, it-pişiklərə zülm edənləri də gördük bu həyatda, dəhşətli hadisələrdə dağıntılar altından insanlarla birlikdə heyvanların çıxarılmasına da şahidlik etdik. Təsəvvür etməzdik, insanlıq tablosunda tamamlanması lazım olanları görmək üçün dəhşətlərdən də keçmək gərəkirmiş...

Bu gün evlərdən, ailələrdən, daha sonra isə bütöv cəmiyyətdən gözləntimiz böyükdür. Bunu söz xatirinə də demirik, kiminsə vaxtını almaqla, "boş şeydir" etinasızlığını qəbullanmamaq ağrısı yaşamaq fikrində də deyilik. Bir fərd sonunda cəm olursa, hər zərrədən küll yaranırsa, gözləntimizin mənasını, məğzini anlamaq da çətin deyil... İnsanlığın var olduğu yerdə, haqqın ehtiva etdiyi ədalət varsa, yetər.

Yetər ki, olsun. Onu "Xocalıya ədalət!"də, 20 Yanvar, 31 Mart qurbanlarının talesizliyini dəyişməkdə, indiyədək itirdiklərimizin mənəvi qələbəsində görməliyik. Bu və sadalamadığım haqsızlıqların öz yerini nəhayət ki haqqa, ədalətə verməsinə şahidlik etmək nəsibimiz olsun!

Eyni zamanda, ilk növbədə, o şahidlərin ədalətli şəkildə, haqqa, insan haqqına uyğun yaşaması və ədalətli deyilən cəmiyyətdə bir fərd və şəxsiyyət kimi nəhayət ki var olması diləyilə...

# Vicdana və qanuna xəyanət

## Qanundan qorxmursunuz, Allahdan qorxun

İnsan yaranışından öz, Yaradanına asi olub və bu səbəbdən cənnətdən yer üzünə sınağa göndərilib. Bunun bariz nümunəsi həzrəti Adəm və Həvvadır. Onlar yer üzünə ona görə göndərildilər ki, öz günahlarını yuyub, yenidən cənnətə qayıtmaq haqqı qazansınlar. Yəni bizlər də Adəm və Həvvanın nəfsinin qurbanlarıyıq. Bu səbəbdən də hazırda insanların böyük əksəriyyəti öz nəfslərinə hakim ola bilmirlər. Anlamaq istəmirlər ki, bu fani dünyada onları çox ciddi sınaqlar gözləyir və onların da ən ağırı, şeytan vəsvəsəsindən qorunmaq və öz nəfsinə hakim olmaqdır. Nəfsə qalib gəlməyin yeganə yolu isə vicdanından vaz keçməməkdir.

Nədir vicdan? Elə bir bəşər övladı yoxdur ki, bu sualı özünə verməmiş olsun (təkcə şeyxul islam Allahşükür Paşazadədən başqa). Bəziləri hesab edir ki, vicdan insanı-insan edən ən böyük qanundur. Eyni zamanda vicdan həm də, içimizdəki ən böyük hakim olaraq bizi pis əməllərdən çəkindirir. Bununla belə, əgər biz öz ləyaqətimizi itirəriksə, bizi vicdan əzabı gözləyir. Vicdan əzabı bir növ itirilən ləyaqətin əks-sədasıdır ki, bizi hər zaman haqq yoluna səsləyir. Yəni insan öz nəfsinə uyaraq pis əməl törətdikdə, rüşvət aldıqda, məzlumlara zülm etdikdə, kiminsə haqqına girdikdə vicdan əzabı onu mühakimə etməyə və belə əməllərdən çəkindirməyə çalışır. Nəfsin vicdana üstün gəldiyi məqamda isə nəinki bir fərd olaraq insan, ümumiyyətlə cəmiyyət mənəvi aşınmaya (deqradasiyaya) məruz qalır. Müasir Azərbaycan cəmiyyəti kimi Azərbaycanda ən çox vicdanını itirən, nəfsin, pulun, var-dövlətin quluna çevrilənlər isə sadə insanları öz qulları hesab edən məmurlar çətesidir. Ancaq onlar unudurlar ki, hesab zamanı gəldiyində törətdikləri hər əmələ, qazandıqları hər qəpiyə görə cavab verməli olacaqlar. Lakin çox təəssüflər olsun ki, mal-dövlət, xadqın ona verdiyi səlahiyyətlərdən sui-istifadə edərək varlanmaq hərisliyi onu ləyaqətindən məhrum edib. Ləyaqətsiz insanın isə vicdanı olmur.



Bütün türk dünyasını sarsıdan son zəlzələ faciəsi bunu bir daha sübut etdi. Yüzminlərlə insan anındaca dağıntılar altında qaldı. Onminlərlə insan canından, malından mülkündən oldu.

Mən zəlzələnin başvermə səbəblərini bilmirəm. Bir bildiyim şey var, dünyada heç bir şey səbəbsiz və təsadüfdən olmur. Hesab edirəm ki, baş vermiş zəlzələ onun ağır fəsadlarının da səbəbi vicdan və ləyaqətin pula qurban verilməsidir. Allahutəalə bizə xəbərdarlıq edir ki, mən hər şeyi görürəm və bilirəm. Yəni siz məzlumları aldadaraq onların malına, mülkünə, puluna sahiblənərək milyonlar qazana bilərsiniz. Mən də bir anda sizi ondan məhrum edərəm. Burada əsas məsələlərdən biri də halala haram qatmaqdır. Görün, işbazların halala haram qataraq qazandıqları milyonlardan sadə insanlar da əziyyət çəkdilər. Deyə bilərsiniz ki, onların günahı nə idi? Susqunluq. İnsanlar bildikləri, gördükləri halda susqunluq nümayiş etdirdikləri üçün Allah onları da cəzalandırdı. Nər kəsə dərs olsun deyə.

Zəlzələ sonrası bir çox məqamlar ortaya çıxdı. Dünyaca məşhur olan türk tikinti şirkətlərinin rəhbərləri də, tikinti zamanı halala haram qatdıqlarını etiraf etmək məcburiyyətində qaldılar. Çünki faktlar göz qabağındadır.

Halallıqla tikilən binalardan isə bir daş belə düşmədi. Bir insanın belə burnu qanamadı. Həmin binaları tikənlərin açıqlamaları da diqqətmi çəkdi:"Mən halala haram qatmadım, məlzəmə çalmadım, Allahımdan qorxdum". Bir başqası isə belə dedi:" Mən vicdanıma və qanunlara xəyanət etmədim".

Bax, ən əsas məsələ də budur, vicdana, qanunlara xəyanət etməmək, məlzəmə çalmamaq, halala haram qatmamaq və Allahdan qorxmaq. Hamı əvvəldən belə düşünsəydi, faciənin miqyası da bu qədər böyük olmazdı.

Bu gün Azərbaycan məmurları arasından bir nəfər çıxıb deyə bilərmi ki, o, vicdanına və qanunlara xəyanət etməyib, yaxud etmir. Deyə bilməz, çünki ən böyük xəyanət rüşvətdir, korrupsiyadır, inhisarçılıqdır, başqasının haqqını yeməkdir, halala haram qatmaqdır. Hansı vicdanlı məmur işçisinə övladlarının gündəlik cib xərclərindən çox aylıq maaş verər? Gündə min manat xərcləyən məmur heç düşünürmü ki, bu minləri, milyonları onun üçün qazanan məzlum insanlar da yaşamaq istəyir, onlar ayda 350-400 manata necə yaşayırlar?

Bu yetməz kimi, hansı məmuru, deputatı dindirirsən, rüsumların, nəqliyyat ödənişlərinin, arayışların, və digər xərclərin qiymətinin artırılmasının vacibliyindən danışır. Bəs vicdanınız harada qaldı cənablar? Həmin məmurlara qulbeçəlik edən bəzi KİV təmsilçiləri və «telekanalizasiya» mənsubları da, öz yazılarında və verilişlərində onlara dəstək verirlər.

Buna səbəb isə odur ki, Azərbaycan cəmiyyəti elə müstəqilliyin ilk illərindən mənəvi aşınmaya məruz qalıb. Son illərdə baş verən kəskin qiymət artımları və bunun qarşılığında pensiyaların və müavinatların cüzi artımı onu deməyə əsas verir ki, ölkəmizdə vicdan əzabının nə olduğunu bilməyənlərin sayı durmadan artır. Bu isə çox ciddi məsələdir. Bunu müzakirə etməyə dəyər.

**Siz dövləti, hökuməti, insanları aldada, halala haram qata, vicdana və qanuna xəyanət edə bilərsiniz, amma unutmayın ki, Allahı aldatmaq olmaz və hər şey onun qüdrətindədir. Türkiyədə baş verən faciəni hər an xatırlayın.**



Yusif Seyid

**Tomas Ceffersonun hələ 18-ci əsrdə qələmə aldığı və sonradan ABŞ Konstitusiyasına əlavə edilmiş İnsan Haqları Bəyannaməsində insan haqları iki hissəyə bölünür - ilkin (doğal) və vətəndaş hüquqları. İnsan vətəndaş hüququ bir vətəndaş olaraq qeydiyyata alındıqdan, yəni rəsmən həddibuluq yaşına çatdiqdan sonra qazanır.**

# "İt günündə" olan hüquqlarımız

## "Bu gün-sabah Formula 1 başlayacaq, bəs onda neyləyəcəksiniz?"



Məsələn, nigah hüququ, seçki hüquqları, sürücü olmaq hüququ və s. hüquqlar insana ölkədə rəsmən qəbul edilmiş həddibuluq yaşına çatdıqdan sonra verilir. Ona görə də bu hüquqlar vətəndaş hüququ adlanır və çoxsayli dünya ölkələrində bu hüquqlar kobud şəkildə pozulur. O cümlədən, Azərbaycanda da bu hüquqlar çox vandal şəkildə zorlanır. Məsələn, Azərbaycan Konstitusiyasına görə vətəndaşın seçki, azad toplaşmaq, azad söz demək hüququ var. Lakin seçki, sərbəst toplaşmaq, media və s. haqqında qanunlar çərçivə qanunu olan Konstitusiyanı pozaraq, onun çərçivəsindən kənara çıxaraq bir sıra vətəndaş hüquqlarını məhdudlaşdırır. Tutaq ki, vətəndaşlar toplaşaraq nəyəsə etiraz etmək istəyirsə, hökumət qanunla deyir ki, bu barədə kimlərəsə xəbər verməlisən. Reallıqda isə icra hakimiyyətindən icazə almaği tələb edir. Halbuki Anayasada yazılıb ki, vətəndaşın azad toplaşmaq hüququ var. Əgər vətəndaş dövlət orqanından icazə almalıdırsa, deməli, məntiqlə həmin orqanın buna icazə verməmək hüququ yaranır. Hər hansı bir hüququn icrasına hansısa dövlət orqanı qadağa qoya bilirsə, artıq bu o hüququn azad olmadığına dəlalət edir. Ya hökumət Konstitusiyada bu hüququn qarşısından ”azad”, ”sərbəst” sozlərini silməlidir, ya da hüquqa azdlıq verməlidir. Yəni onun heç kim tərəfindən qadağan edilə bilməməsini təmin etməlidir. Lakin Azərbaycan hökuməti bunun heç birini etmir - Konstitusiya ilə beynəlxalq təşkilatları aldadır, çərçivə qanununun çərçivəsindən çıxan qanunlarla isə vətəndaş hüquqlarını qeyri-qanuni olaraq məhdudlaşdırır. Bu hələ pozulan hüquqlarımızın ən betəri deyil, yuxarıda qeyd etdiyim kimi, bu baxımdan bizə tay olan kifayət qədər dünya ölkəsi var. Lakin doğal insan haqlarına münasibətdə dünya çoxdan dəyişib. Dünyanın kifayət qədər krallıqları var. Krallıqlarda ümumiyyətlə, vətəndaşın seçki hüququ Anayasada da təsbit edilməyib. Amma vətəndaşın doğal hüquqları yüksək səviyyədə qorunur. Nədi ilkin (doğal) insan haqları? O haqlar elə hüquqları əhatə edir ki, insan ona doğulduğu andan sahiblənib. Azərbaycan hökuməti bütün strukturları ilə məhz ölkə əhalisinin doğal hüquqlarını pozmağa artıq vərdiş edib. Biz ən sadə hüquqdan söhbət açmaq istəyirik - ölkədə sərbəst hərəkət etmək hüququmuz var və bunu qanunla heç kim bizə qadağan edə bilməz! Bu artıq seçki hüququ deyil ki, kiminsə prezident və ya deputat olmasını əngəlləmək təhlükəsi yaratsın. Bütün seçkili və təyinatlı vəzifələr və görəvlər sizin olsun, bizim sərbəst hərəkət etmək hüququmuzu özümüzə qaytarın! Bu hüquq hardasa ucqar bir dağ kəndində pozulsaydı (hərçənd ki, hökumətin orada da bu hüququ pozmağa ixtiyarı yoxdur!), bundan heç kimin xəbəri də olmazdı. Heç o qədər də nəzərə çarpmazdı, çünki kəndlərimizdə kifayət qədər alternativ yollar var. Bir yolu bağlasan, kənd sakinləri başqa yolla hərəkət edəcək. Dərd burasındadır ki, insanların sərbəst hərəkət etmək hüququ ölkənin paytaxtında pozulur. Şəhərdə harasa getmək istəyərkən bir də görürsən əli dubinkali yol polisi Ərəbzəngi kimi yolu bağlayaraq məğrur dayandırıb. Polisin çoxu yolda dayanaraq, sükan arxasında əsəbindən dil-didağını gəmirən sürücülərin bu halından həzz alır, gülümsəyərək, utanmadan sual da verirlər - ”noolub?”.

Belə ki, ötən həftənin çərşənbə günündən başlayaraq Bakı Şəhər İcra Hakimiyyəti heç bir alternativ yol təklif etmədən Nobel prospektində qazıntı-təmir işlərinə başladı. Yeni Salyan Yolu istiqamətindən şəhərə gələn nəqliyyat vasitələri saatlarla ”Şeytan çarxı”nın yanında gözləmək məcburiyyətində qaldılar. Bu biabırçılıq beş gün davam etdi. Hər gün səhər saat 8.00-dan 10.00-a qədər, axşam isə saat 17.00-dan 19.00-a qədər yol polisi həmin yerdə hərəkəti tamamilə dayandırdı. Yol polisi tərəfindən yaradılmıs süni tıxacın uzunluğu beş kilometrdən çox idi.

Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətindən bildirdilər ki, məsələdən xəbərimiz var, amma bizdən asılı olan problem deyil. Bakı Şəhər Dövlət Yol Polisindən isə bildirdilər ki, yol Bakı Şəhər İcra Hakimiyyətinin tələbi ilə bağlanıb, Nobel prospektində “Formula 1” ilə əlaqədar olaraq yol təmir edilir. Biz deyəndə ki, axı bu doğal insan hüququdur, niyə əhalinin sərbəst hərəkət hüququnu pozursunuz, ”guya bizi sayan, sözümüzü eşidən var?” cavabını aldım. Bu cavabın çox dərin mənası var. Yəni hökumət rəhbərliyi özünün təyin etdiyi peşəkar menecerlərin belə, mövqeyinə məhəl qoymur, ölkə ”mağara qanunları” ilə idarə edilir.

Ondan da maraqlı cavab Bakı Şəhər İcra Hakimiyyətindən gəldi - ”Neyləyək, bəs yolu təmir etməyək? Bu gün-sabah “Formula 1” başlayacaq, bəs onda neyləyəcəksiniz?” Özünü təqdim etməyən, məlahətli səslə məlahətsiz ifadələr izhar edən xanıma dedik ki, bizim sizə verəcəyimiz sualı nə üçün siz bizə verirsiniz? “Bu dövlət tədbiridir, hamı buna dəstək verməlidir, bir-iki aylıq çətinlikdir, hamımız dözməliyik” - deyə, adının həsrətində qaldığımız xanım telefonu qapatdı.

Çox maraqlıdır - ”bu dövlət tədbiridir”! Belə bir sual yaranır, dövlət kimdir və nə üçündür? Dövlət bütün əhali, sərhədlər, ərazi, hökumətdən və s. qarışıq, biz birlikdə dövlət adlanırıq. Biz vətəndaş hüquqlarımızın bir hissəsini dövlətə tabe etmişik ki, o bizi cəmiyyət olaraq qorusun, digər hüquqlarımızın təminatına zəmanət versin. Elə isə vətəndaşın ən sadə doğal hüquqlarını (bu faktdan sərbəst hərəkət etmək hüququ) pozan bir tədbir (Formula 1) dövlət tədbiri ola bilərmi? Əlbəttə, ola bilməz. Bunun üçün dövlət vətəndaşdan ələ və mandat almalıdır - bu tədbiri keçirə bilərəmmi, bilərəmsə, harda keçirə bilərəm? Çünki bu tədbiri keçirmək dövlətə və ya hökumətə vətəndaşın verdiyi mandata daxil deyil. Vətəndaş hüquqlarının bir hissəsi dövlətə verilməyib ki, onun köməyi ilə vətəndaşın digər hüquqlarını pozsun və ya məhdudlasdırsın! Bu hüquqlar sənə ona görə verməyib ki, bir sürü hərın avropalının xobbisini reallaşdırmaq üçün paytaxtın mərkəzi küçələrini iflic vəziyyətə salasan.

Hər il bu tədbirin Bakı şəhərinin mərkəzində keçrilməsi ölçüyəgəlməz hüquq pozuntusudur və nə vaxtsa buna fərman verənlər cavab verməli olacaqlar.

Yeri gəlmişkən, bir məsələni də vurğulayım ki, “Formula 1”-i paytaxtın mərkəzində keçirməklə həm bizim doğal insan hüquqlarımızı pozurlar, həm də dövlətin atributlarından biri olan, Dövlət Bayrağımızı ralli küçələrinə həkk edib, onu tötemi ”sirk şiri” olan anqlosaksonlara taptaladırlar. Binəva Ərdoğan yerdən Türk Bayrağı yığmaqdan yoruldu, o, bayrağın müqəddəsliyini nə bizimkilərə, nə də anqlosaksonlara başa şala bilmir. Amma deyəsən pandemiyadan sonra bizimkilərin ağlı başına gəlib. Keçən il deyəsən asfalta bayraq həkk etməmişdilər. Bu da ingilis pilotlarının xətrinə dəymişdi.

Məlumat üçün qeyd edim ki, bu il Bakıda “Formula 1” Qrant Prisi aprel ayının 30-da keçiriləcək. Odur ki, tezliklə paytaxt sakinlərinin məhrumiyyətləri başlayacaq.

Elə bu yol təmiri Bakıda ekstrimal hərəkət mövsümünün başlanğıcını qoydu. Beş gün yol təmir etdilər, indi də yavaş-yavaş küçələrimizi “Formula 1” ləvazimatları ilə ”bəzəməyə” başlayıblar.

**Sonda qeyd edim ki, artıq Azərbaycan dövlətini idarə edən hökumət çoxdan vətəndaş hüquqlarını ayaqlar altında taptalamağa vərdiş edib. Bu vərdişi ona kim unutdurmalıdır, kim onu bu hüquqlara hörmətlə yanaşmağa məcbur etməlidir? Bu sualın cavabını biz - huquqlarının bir hissəsini dövlətə təslim etməklə onu gücləndirən vətəndaşlar tapmalıyıq!**



Akif Nəsirli

# Nə qədər ki, xəzinədar ədalətsizdir

## Çöhrələrdəki gülüşə həsrət qalacağıq!

**Deyirlər dünyanın ən xoşbəxt, ən gülərüz insanları İrlandiyada yaşayırlar. Səbəbini müxtəlif fikirlərlə izah edirlər…**

Məsələn, uzun illər müharibə şəraitində yaşadığı İngiltərə ilə qonşu olmasına, tez-tez vikinq basqınlarına məruz qalmasına, həmçinin təcrid olunmuş bölgə olmasına baxmayaraq, İrlandiya xalqı heç zaman üzlərindəki xəfif təbəssümü əksiltmədilər. Yaşlı nəsildən olanlar bunu Allahın onlara lütfü kimi dəyərləndirirlər. Yaşlıların çox zaman qəmgin, həyata küskün, zəif və əsəbi olduğu haqda yürüdülən fikir və düşüncələri irlandiyalılar əsla qəbul etmirlər.

Son statistikaya görə, əhalisi 4 239 848 nəfər, ərazisi isə 70 208,67 km olan bu dövlətin iki rəsmi dili, irland və ingilis dilləri olsa da, burda yaşayan xalq öz mədəniyyətini qoruya bilib. Bizdən fərqli olaraq hara baxsan hər yerdə irlandca yazıların olması, özünəməxsus memarlıq nümunələri, hətta evlərin küçəyə açılan qapılarının belə, rəngarəng olması, milli xörəkləri və çoxsaylı içki növləri onların öz keçmişlərinə dərin sevgi ilə yanaşdıqlarının, onu yaşatdıqlarının sübutudur desək, yəqin ki yanılmarıq.

Qısası gülərüzlü, xoşbəxt insanların məskunlaşdığı bu məmləkəti gedib görsəniz təsdiq edərsiniz ki, İrlandiya həm gəzməli, həm də bir ömür yaşamalı dövlətdir ki, bu haqda daha çox şeylər yazmaq olar, amma bugünkü söhbətimizin səmti başqadı. Bunları sadəcə ona görə xatırlatdım ki, ***"Cənnət görmək istəyən, Azərbaycana gəlsin"*** deyimi reallığı heç zaman əks etdirmədi. Ən azı biz görmədik, bəlkə bundan sonraki nəsillər görər, onu da artıq zaman göstərəcək.

İstər bölgələrimizdə, istərsə də paytaxt Bakıda yaşayan doğma, yad tanıdığım, görüb rastlaşdığım insanların çöhrələrindən sanki eyni biçimdə aqressiya, təlaş, ümüdsüzlük, yorğun, solğun, bezgin baxışlar boylanır. Hamısı eyni biçimdə, inamsız, soyuq, küskün və boz rəngdə. Yəni insanların ictimai nəqliyyatda gedib-gələn, küçədə var-gəl edən, toya tələsik gəlib, tələsik yeyib çıxan, uşağını məktəbə qaça-qaçla aparıb-gətirən qismindən danışıram. Lüks arabalarda gəzənləri demirəm, onların üzlərini görmürəm ki, barələrində fikir də yürüdəm, hərəkətdə olan arabaları idarə edənlərə baxmaq kimi vərdişimin olmadığından.

Əslində bu xoşgörülü məsələ barədə həmişə düşünürəm. Elə yuxarıda irlandiyalıları misal gətirməyimin də səbəbi budur.

Doğrudu, daim sağdan-soldan, zaman-zaman düşmən kəsilənlərin hiylələrinə məruz qalmışıq, bunu unutmuruq, amma misal gətirdiyim o xalq da bizdən az yaşamayıb belə zülümləri. Yəni tarixə nəzər salsaq görərik ki, onlara da qənim kəsilənlərin insanlığa sığmayan ən ağır işgəncələrini görüblər, yaşayıblar. Amma buna rəğmən tarixdən silinmiş xalqlardan olmayıblar, varlıqlarını qorumağı bacarıblar. Bir sözlə, keçmişini unutmadan xoşbəxt yaşamağı yaxşı öyrəniblər, bizdən fərqli olaraq.

Dünən bu barədəki suallarıma cavab tapmaq üçün küçədə, dükan-bazarlarda əhalinin müxtəlif təbəqələrinə aid insanları gördükcə fürsəti qaçırmayıb söhbət etdim. On adamdan səkkizinin üzündə kədərin qoyduğu dərin izlər, qəm-qüssədən yaranan qırışlar varıydı ki, hər birindən bir əsər yaranardı, qələmə alan olsaydı. Niyə, hansı səbəbdən bu qədər kədərli göründüklərini soruşdum. Məni maraqlandıran sualların cavabı sizlərdədi, dərdinizi mənə anladın, dedim. Yoxsulluqdan solmuş biri (adını çəkməyimə razı olmadı) məni bir xeyli lal baxışlarıyla süzdükdən sonra, axır ki, kimliyimi soruşdu. Barəmdə hərtərəfli məlumat alandan sonra dedi: " Niyə belə olduğumu deməyimin mənası yoxdu, çünki bu sual vaxtında verilsəydi cavabı da vaxtında alardınız, artıq çox gecdi. Amma bir şeydə hələ gec qalmamısan, baxıram yaşına, hələ öyrənməyə zamanın var kimi görünür. Nə qədər ki, gec deyil, mənim vəziyyətimə düşənlərin sayı çox olmasın deyə düşünürəm tövsiyyələrimin sizlərə xeyiri ola bilər. Özüm çox gec anladım bunları, o zaman ki, ardınca ümidlə baxdığım qatar çoxdan keçmişdi, çata bilmədim, heç olmasa siz gecikməyin, dinləyin.

Bu həyatın bir çox qaydaları var:

- Xoşbəxt olmaq istəyirsənsə xəyallarının, arzularının ardınca get. Getməzsən bu səni ömrün boyu düşündürər, sakit buraxmaz;

- Çox sayda dostun olsun deyə uğraşma, yanında olanların qiymətini bil, ən dəyərli varlıqların ailəndir, onlarla çox vaxt keçirməyə çalış;

-Dünyanın acı çəkəcək, yıxıla biləcək məqamları da var, belə anlarda yanında kimlərin olacağını yaxşı düşün. Kaş ki, deməməkçün zamanını dəyərləndir. Ətrafındakı insanlar hər an xəta edə bilərlər, amma sən mütləq bağışlayan tərəfdə ol, belə etsən qazanan sən olacaqsan;

-Həyat çox zaman istədiklərini verməyəcək, lakin yenə də ürəyindən keçənləri ona pıçılda, nə zamansa istəklərin mütləq gerçəkləşəcək;

- Özünü tənqid etmədən, mahiyyətini dərk edə bilməzsən.

Sevdiyi, ya da sevildiyi insana sayğı duymayanlar, o üzüldüyü zaman da qayğı duymazlar. Hansı ki, o üzüldüyündə sənin də kədərlənməyin bir roman yazmış qədər dərin anlam ifadə edər. Çünki duyğuları bu qədər həssaslaşdıran və insanları bir-birlərinə yaxınlaşdıran onların sözləri deyil, hərəkətləridi;

-Dünyanın fani, əməllərinin qalıcı olduğunu düşün, necə ki, hansı şəkildə öləcəyinə zəmanət verə bilmirsən, eləcə də boş şeylərin ardınca da səfil olma. Çünki bir gün sonsuzluq səfərinə çıxmaq vaxtı yetişəndə, nə gətirdin deyə əməl dəftərinə baxacaqlar. O dəftərə nə yazıldığı isə sənin iradənə bağlıdı;



"Mən insanları və cinləri mənə ibadət etsinlər deyə yaratdım", deyən Uca Allahın istəklərinə uyğun şəkildə həyatını yaşa ki, heybən daim dolu olsun;

-Bəzən qələbəlik yerdə olsan belə, yalnız qalıb ağlamaq istərsən, bəzən də doğma saydıqlarına sığınmaq istərsən səni anlamazlar. Dediyim budur ki, insanlar yalnız olduqları üçün deyil, yanlış qəlblərdə müsafir olduqları üçün xoşbəxt deyillər. Ona görə də nə dəyərini bilməyənlərin dükanının önündə əyləş, nə də səni anlamayanların ağır enerji və auralarıyla uğraşma. Dünya həyatı çox gözəl bir səhnədir, çıx rolunu doğru oyna;

-İnsanın qəlbində sevgi varsa aldatmaz və ağlatmaz. Çünki aldatmaq insan şərəfinə, ağlatmaqsa insan ürəyinə edilmiş ən hiyləgər hücumdu;

-Kaprizli insanlar iyrənc kompekslərini insanları tapdalayaraq həyata keçirirlər ki, öz yüksəlişlərinə çatsınlar. Amma bilməzlər ki, həyat başqalarına etdiklərilə onları imtahan edənədək peşlərini buraxmaz;

-Məqam sahibi olmaq üçün Sənə badalaq atanların həndəvərinə bir daha yaxınlaşma ki, fürsət düşən kimi yenidə tələ qurmasınlar;

-İnsanlar daim axtarışdadılar, tərk edilməyəcəkləri sevgini, xəyanətə uğramayacağı dostluğu və yaşamadıqları xoşbəxtliyi axtarırlar. Tapa bilməyəndə də öz aləmlərinə çəkilib, yalnızlaşırlar. Amma çox gec anlayırlar ki, yalnız qalmaq pis deyil, üstünlükdü;

-Dostumdu, gec qalsam da məndən inciməz dediklərinizə gec olmadan sarılın, səmimiyyətinizdən sui-istifadə edənlərdən isə uzaq durun;

-Həyat yalnız beşikdən məzara qədərki müddətdən ibarət deyil, sevgini, hörməti, vəfa və şəfqəti, mərhəmət və gülümsəməni itirdiyin, unutduğun hər gün ölümdür, anlayana. Bu gözəl duyğuları itirmədən həyatı yaşarsan, o zaman qarşılaşdığın əngəlləri rahat aşarsan. Amma həyatın mənasını anlamadan yaşarsan, onda həyat səni qarşısıalınmaz sel kimi vurub uçurar;

-Hər kəs nə gəldi danışar, kimsə dinləyim deməz. Hamı arada guya susurmuş hiyləsi edər ki, mühakimə edən toplum bax, bunlardan, bu hiyləgərlərdən ibarətdir. Bəli, bizlər qarşımızdakını dinləmədən, anlamadan yarğılayıb cəzalandırmağa meyilliyik;

-Ən xoşbəxt insanlar səlahiyyət sahibi olmasalar da belə, arada körpü qurmağa çalışanlardı. Körpü qurmaq "Məni eşidirsənmi?"-demək deyil, "Səni eşidirəm" deməkdi. Ona görə də divarları hörmədən qarşıya diqqətlə baxın. Bunları bacaranlardı ən xoşbəxt insanlar;

-Üç tip insana, 1)soyu bəlli olmayana, 2) yolu bəlli olmayana, 3) huyu bəlli olmayana inanma. Soyu bəlli olmayanın kökü, yolu bəlli olmayanın hədəfi, huyu bəlli olmayanın xarakteri zəyifdir.

Bu dərsləri həyat mənə çox gec, hər şeyi itirəndən sonra, ailə vəziyyətimizin ağırlığı məni sıxıb bitirdikdən sonra, həyat yoldaşımın uzun müddət yataqda qalmasının çaşqınlığı və heç bir yerdən gəlirimiz olmadan dilənçi kökündəki yaşayışımdan usandıqdan sonra, əlillik almağımızın yolu rüşvətdən keçdiyini anladığımda, özümdən hər mənada aşağı insanların xidmətçisi kimi çalışanda, insan kimi normal yaşamaqdan məhrum olduğumda öyrətdi. O zaman ki, artıq unutmuşdum gülüşü, təbəssümü. Sən gülərdinmi bu dediklərimi yaşasaydın?".

Cavab verə bilmədim.

Bu insanları çətin və dözülməz duruma salanların, çöhrələrini gülüşə həsrət qoyanların, ölkədəki hər yeri, dükan-bazarlarından tutmuş digər xidmət obyektlərinə qədər zəbt edən asiləri düşünürdüm, dinlədikcə.

Və nədənsə sovet ideoloqlarının təbliğ etdikləri "Çörək olsa, mahnı da olar" şüarını xatırladım.

Deyəsən indi anlayıram həmin o məşhur şüarın hakim olduğu dövrü yaşadığımı. Hər kəsin normal qidalana bilmədiyi, insanca yaşamaq arzusunda olduğu zamanda üzlərdən gülüş ifadəsinin niyə qeyb olduğunu yenidən anladım. Çox təəssüf ki, burda hamı ölkənin yalnız uğurlarından danışmağa adət ediblər. "Goreşənləri" önə verib xalqa məxsus olanları talayırlar, xalqa isə şişin ucunda verirlər yavan əppəyi. Ehtiyacdan çəkdiyimiz əzabları görməzdən gəlirlər, Fironlar kimi. Firavan həyat deyəndə özlərinin, xalq deyəndə isə qohun-əqrabalarının həyat tərzini ifadə edirlər. Ufacıq təbəssümə həsrət qalan kasıb insanlar haqqında təsəvvürləri belə, yoxdur, zalımların. Çöhrələrdəki kədər və aqressiya ölkədə pul yığmaq oyunu olduğu sürəcdə çəkilməyəcək, bunlar əsəbi, həyəcanlı, gərgin mühitin məhsuludur. Nə qədər ki, xəzinə quldur əlindədi, çətin ki, gülək. Amma yenə də hər şeyə rəğmən gülümsəyək, lap elə süni də olsa, şair demişkən, "Nə qədər yaraşır insana gülmək!"



***Şahnaz Salehqızı***

# Kasıblar ölkəsinin varlı generalları

## Pensiya sistemindəki haqsızlığa kim məsuliyyət daşıyır?

**Ey gidi dünya, düz deyirlər ki, pul, pul üstə gələr. Yəni ki, atalar demiş, fal olmayan yerdə toyuq yumurtlamaz, yümurta olmayan yerdən cücə çıxmaz, cücə çıxmayan yerdə artım və inkişaf olmaz, bu qədər bəsit. Bu səbəbdən də mən, mənim kimi imkansız insanların pulsuzluqdan şikayətlənmələrini bir qədər təəccüblə qarşılayıram. Əslində isə burada təəccüblü heç nə yoxdur. Çünki istər sovet dönəmində, istərsə də müstəqillik dövründə Azəbaycanda varlanmağın bir yolu olub- məmur kreslosuna sahiblənmək. Əgər babalarımız, atalarımız bu kateqoriyaya daxil ola bilməyiblərsə, bizim gileylənməyimizin heç bir əhəmiyyəti yoxdur. Buraya müstəqillik dövrünün yerlipərəstlik, qohumbazlıq, yaltaqlaq və itaətkarlıq kimi nəsnələrini də əlavə etmək lazımdır. Bunu etməsək, bir çox bu yolla deputat və məmur olan "şəxslər" bizdən inciyərlər.**

Məsələn, götürək məmur ovladlarını. Hansının adını çəksən, görəcəksən ki, milyonlarla ölçülən sərvətlərə, nəinki ölkəmizdə, bir çox əcnəbi ölkələrdə böyük biznes şəbəkələrinə sahibdir. Heç kim də ondan soruşmur ki, bala, bunca sərvəti hansı yolla və necə qazanmısan? Çünki, bunu soruşmaq səlahiyyətində olanların sərvəti onlardan heç də az deyil- o da məmurdur axı.

Sözün qısası, Azərbaycanda varlanmağın bir yolu var-məmur, yaxud məmur övladı olmaq. Belə bir şansın yoxdursa, ya oğurluq-quldurluq etməlisən, ya bu ölkədən baş götürüb getməlisən, ya da, ”ağaların” verdiklərinə şükr edib, ölənə qədər minimum əmək haqqına hamballıq etməli, yaxud cüzi pensiya ilə dolanmağa məhkumsan, başqa yolun yox. Buna da deyirlər, sosial yönümlü siyasət və xalqın rifahı üçün çalışmaq.

Gəlin bizim pensiya sistemınə diqqət edək. Çunki bu, mənim, və mənim kimi ölkənin milyonlarla ahıl insanların, öz sağlamlıqlarını, gəncliyini əməyə, zəhmətə qurban verənlərin ən ağrılı yeridir. 50 ildən artıq ən ağır işlərdə işlədim ki, dövlətimizin müstəqilliyi üçün etdiklərimi nəzərə almasalar da, eyni dövlət müəssisəsində 50 il işləməyimi nəzərə alaraq normal pensiya alaram və qalan 10-15 il ömrümü insan kimi yaşamaq haqqım olar. Amma və lakin...

Bugünlərdə gömrük generallarının 10 min manat pensiya almaları haqqında məlumatlar sosial şəbəkədə ən çox müzakirə olunan mövzuya çevrildi. Əslində, burada qəribə heç nə yoxdur. Dövlət öz məmurlarına sahib çıxır. İstəmir ki, onlar təqaüdə çıxandan sonra sadə vətəndaşların səviyyəsinə düşsünlər. Bu insanlar dövlət qulluğunda olduqları zaman səhər yeməyində kürüylə, naharda ən ləziz nemətlərlə, şam yeməyində isə xudmanı yeməklərlə qidalanıblır və bunun adətkarı olublar. Vəzifədən getdikləri an bütün bünlardan məhrum olsalar, heç 10-15 gün yaşamazlar. Bizim dövlətimiz isə buna yol verə bilməz, çünki «çox humanistdir və hər kəsin qayğısına qalır», ələlxüsus da məmurların. Adi vətəndaşlar isə ”dözümlü xalq”dır zibillikdən də özünə qida tapar, evi olmasa hər hansı bir zirzəmidə də yaşaya bilər. Amma dövlət büdcəsini, eyni zamanda, həm də öz ciblərini pulla dolduran gömrük generalları bunu edə bilməzlər, ayıb olar axı, əcnəbilər baxıb nə deyər.

Bunu təkcə generallara deyil, digər məmurlara da aid edirlərsə, bu barədə düşünməyə dəyər. Çünki görəvdə olduğu müddətdə törətdiyi qanunsuz əməllərə görə qazamata ”istirahətə” göndərmək əvəzinə belə yüksək təminatla mükafatlandırılırsa, burada hansısa qaranlıq məqamlar var. Eyni zamanda başa düşmək lazımdır ki, onların çoxsaylı obyektləri, dəyəri milyonlarla ölçülən villaları nəzarətsiz qala bilər. Digər tərəfdən həmin generallara da adi vətəndaşlar kimi pensiya verilərsə, bu heç onların kom-



munal xərclərini belə, ödəyə bilməz. Mən hələ sürdükləri avtomobillərin benzin pulunu demirəm.

Hazırda özünün pensiya sahəsindəki analoqu olmayan islahatlarına görə, həbs həyatı yaşayan Səlim Müslümov Dövlət Sosial Müdafiə Fondunun (DSMF) rəhbəri olduğu zaman yazmışdım ki, bu qurumun adı düzgün deşifrə olunmur. Əslində, belə oxunmalıdır- «DSMF-Dövlətlilərin Sosial Müdafiəsi Fondu». Çünki Səlim Müslümovdan qalan miras Azərbaycanda dövlətlilərdən başqa bütün vətəndaşları dilənçi gününə qoydu.

Burada ən maraqlı məqam bilirsiniz nədir? Həmin dövlətlilərin böyük əksəriyyətinin məmur, deputat olmaları və abır-həyalarının olmaması. Onlarda həya, abır deyilən bir şey olsaydı, özləri təyin olunan pensiyadan imtina edərdilər. Onların heç birinin bu pensiyaya ehtiyacı yoxdur. Mən ad çəkmək istəmirəm, çünki birinin adını çəkib, digərini qıraqda qoysam , bunu qərəz kimi qələmə verəcəklər. Onu da qeyd edim ki, bir dövlət məmuru ilə nəinki qohumluq, heç tanışlıq əlaqəm belə yoxdur. Ona görə də, kimsə qarşı qərəzim ola bilməz. Onların pulunda, sərvətində də gözüm yox. Ona görə ki, bir müsəlman olaraq axirətdə bir qəpiyin belə hesabını tələb edəcəklər və orada haqq-hesab vermək çox çətin olacaq.

Məmur övladlarının böyük sərvətləri, bir çox əcnəbi məmləkətlərdə yatırımları, sayı-hesabı bilinməyən daşınan və daşınmaz əmlakları var. Bütün bunlar yetmir, dövlət bu talançılığa görə, onlara hələ üstəlik 10-15 min manat pensiya da verir. Ancaq 40-45-50 il istehsalatda çalışan əməkçi insanların böyük əksəriyyətinin quru canından başqa heç nəyi olmasa da, dövlət ona ən yaxşı halda son artımla 500 manat pensiya verir, onun da tam yarısını müxtəlif adlar altında (kommunal xərclər, arayış pulu, rüsum, və s. və i.) geri alır. Bunun harası sosial ədalətdir cənablar? Sovet rejimi heç olmasa əmək veteranlarını kommunal və digər xərclərdən azad edirdi.

Azəbaycanda pensiya sistemini S.Müslümov bərbad vəziyyətə saldı, indi də cəzadan yaxasını qurtarmaq üçün yollar axtarır. Tapacaqmı? Taracaq, çünki burası Azərbaycan.

Ən acınacaqlısı bilirsiniz nədir? Bu məmləkətin məmur cameəsində” gözü çıxan qardaş”dan nümunə götürmək kimi bir anlayış yoxdur. Sahil Babayev S.Müslümovun yolunu ondan da pis formada davam etdirir. Vəzifəyə gəldiyi gündən guya S.Müslümov dönəmində təyin edilən qanunsuz pensiyaları axtarıb tapmaqla məşğuldur. Amma həmin pensiya pullarını S.Müslümovdan, yaxud da onun əlinin altında çalışanlardan geri almaq mexanizmini tapa bilmir.

İkincisi, çoxsaylı insanlar tanıyıram ki, S.Müslümovun haqsızlığı üzündən haqq etdikləri pensiyalarını belə, ala bilmirlər. S.Babayev isə bu barədə susur, çünki bu faktları üzə çıxarmaq ona sərf etmir.

***P.S.*** *Türkiyədə baş verən faciəni düşünün cənablar. Bu fani dünyadan heç nə apara bilməyəcəksiniz. Zibil qutularına möhtac qoyduğunuz məzlumların ahı sizi də tutacaq, sadəcə geci-tezi var...*



**Yusif Seyid**



# LAVROV BAKIYA NİYƏ GƏLDİ?

- Lavrov Bakıya səkkiz ay öncə gəlmişdi, ABŞ və Avropanın tətbiq etdiyi yasaqlardan qurtulmaq üçün Azərbaycanın imkanlarından yararlanmağa, Brüssel formatında keçirilən danışıqları pozmağa çalışırdı, o zaman istədiyini əldə etdi;

- Lavrov yenə gəldi, xeyir gətirmədi, xeyrə gəlmədi. Onun gəlməsinin səbəbləri bunlardır: üç önəmli hadisə baş verdi, birincisi, Brüssel formatının bərpa imkanı ortaya çıxdı, Azərbaycan Prezidenti Münhenə getdi, ilk dəfə ABŞ-ın Xarici İşlər naziri Blinkenin iştirakı ilə Paşinyanla görüşdü, ciddi məsələlər müzakirə olundu, Prezident Brüssel danışıqlarına dəstəyini açıq ifadə etdi, verilən məlumatlara görə görüş üçün hazırlıqlar başladı - təbii ki, Rusiya özünü narahat hiss etdi. İkincisi, Güney Qafqazda mövqeləri zəifləyən Rusiya Xankəndindəki imkanlarını artırmaq üçün göndərdiyi Ruben Vardanyanı qurban verməyə məcbur oldu, o, istefaya göndərildi. Bunun üç səbəbi var: a) Azərbaycan hakimiyyəti qəti mövqe ortaya qoydu, Rusiyaya dedi ki, Ruben Vardanyanı əsla tanımayacağıq. Bu mərhələdə Azərbaycanla qarşı-qarşıya gəlmək istəməyən Rusiya Azərbaycanın tələbini yerinə yetirdi. O, bilir ki, Ruben Vardanyan Azərbaycanı Rusiyadan uzaqlaşdıran faktordur, Ruben iddia edirdi ki, Arsax müstəqil dövlət olacaq, Azərbaycana meydan oxuyur, biz qonşu dövlət ola bilərik deyirdi. Rusiya Azərbaycana ondan uzaqlaşmaq bəhanəsi verən - səbəb olan fiqurdan imtina etdi, ancaq Xankəndi ilə bağlı planlarından imtina etmədi, etməz, Ruben gedər, Qurqen gələr; b) Ruben Vardanyan Qarabağ ermənilərinin siyasi elitasını parçaladı, Rusiyaya qarşı güvənsizliyə yol açdı; c) Paşinyan Ruben Vardanyanın Xankəndinə göndərilməsini Rusiya mənə alternativ hazırlayır kimi oxudu, Rusiyadan uzaqlaşmaq üçün bəhanəyə çevirdi, Rusiyanın mənafeyinə uyğun olmayan addımlar atdı, nəticədə, Ruben Vardanyan Azərbaycanı, Xankəndini, Ermənistanı Rusiyadan uzaqlaşdıran faktora çevrildi - bu üç önəmli səbəb Rusiyanın Ruben Vardanyanı istefaya göndərməsinin yolunu açdı. Rusiyanın Gürcüstanda sınaqdan çıxardığı "zəngin adam" siyasəti Qarabağda ciddi nəticələr vermədi. Rusiya Ruben Vardanyanı qurban verəndən sonra Lavrovu Bakıya göndərdi ki, Azərbaycanla danışmaq, siyasi qazanclar əldə etmək imkanı olsun;

- Lavrovun Bakıya gəlməsindən öncə üç önəmli hadisə baş verdi dedik, üçüncüsü də odur ki, Avropa Birliyinin müşahidəçi qrupu Ermənistana gəldi, Azərbaycanla sərhədə yerləşdi, Rusiya ciddi narahat oldu, həyəcanlandı ki, Güney Qafqaz əldən gedir;

Ardı var...

*Siracəddin Hacı*

# "İranda etirazlar artır, rejim böhranla üz-üzədir"

**"İranda etiraz fəallığı artır. Rejim bir çox fərqli sahələrdə böhranla üz-üzədir".**

Bu barədə ABŞ-ın Müharibə Araşdırmaları İnstitutu məlumat yayıb.

Bildirilib ki, bunun əsas səbəbi rejimin səriştəsizliyi və idarəetmənin düzgün qurulmamasıdır: *"Dünən, fevralın 28-də İranın 14 əyalətində 20 etiraz aksiyası keçirilib. Onlardan 18-i İranın pisləşən iqtisadi durumu ilə bağlıdır. Bu etirazlar göstərir ki, İranda aksiya iştirakçılarının fəallığı güclənir".*



Məlumata görə, fevralın 28-də İranda 10 aylıq Asiya gepard balası öldürülüb: *"Fəallar bunu rejimin ekologiya sahəsindəki səriştəsizliyinin növbəti təzahürü kimi qiymətləndirirlər. 2022-ci ilin sonundan indiyədək İranın ən azı 10 şəhərində yüzlərlə məktəbli qız zəhərlənmə əlamətləri ilə üzləşib. Onlarda öskürək, bədənin müxtəlif hissələrinin uyuşması, titrəmə müşahidə olunub. Bəziləri xəstəxanaya yerləşdirilib. Hüquq-mühafizə orqanlarının komandanı briqada generalı Əhməd Rza Radan dünən deyib ki, sözügedən hadisələr araşdırılır. Onun bildirdiyinə görə, cinayətkarlar hələ tapılmayıb. Bəzi sosial media istifadəçilərinin fikrincə, bu, iranlı qadınları təhsildən məhrum etmək üçün atılan addımdır".*

Xatırladaq ki, İranda etiraz aksiyaları ötən ilin sentyabrın 17-də 22 yaşlı Məhsa Əmininin işgəncə nəticəsində öldürülməsindən sonra başlayıb.

# Qərbi Azərbaycan İcması Avropa İttifaqı Şurasının Prezidentinə məktub göndərib

Qərbi Azərbaycan İcması Avropa İttifaqı Şurasının Prezidentinə məktub göndərib.

Bu barədə İcmadan məlumat verilib.

Bildirilib ki, Qərbi Azərbaycan İcması Avropa İttifaqı Şurasınınprezidenti Şarl Mişelə məktub göndərərək, Ermənistandan qovulmuş azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə öz vətənlərinə qayıtmalarına Avropa İttifaqının dəstək verməsini və Avropa İttifaqının Ermənistandakı Missiyasının (EUMA) bu ölkədən qovulmuş azərbaycanlıların hüquqlarının təmin edilməsi sahəsində müvafiq etimad quruculuğu tədbirləri həyata keçirməsini xahiş edib.



Məktubda Avropa İttifaqının Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasını təşviq edən səyləri alqışlanmaqla bərabər, davamlı sülhün bərqərar edilməsi üçün Ermənistandan qovulmuş azərbaycanlıların qayıtmalarının zəruri şərti olduğu vurğulanır.

Həmçinin, EUMA-nın mandatının etnik əsasda ayrı-seçkilik olmadan Ermənistanda insan hüquqlarına hörmətin təmin edilməsinə və etimad quruculuğuna dair vəzifələr ehtiva etdiyinə diqqəti çəkən İcma, Missiyanı Ermənistandan qovulmuş azərbaycanlıların hüquq və təhlükəsizliyi ilə məşğul olmağa, o cümlədən, onların öz evlərini, qəbirstanlıqlarını, müqəddəs yerlərini və mədəni abidələrini ziyarət edə bilmələrinə şərait yaratmağa çağırıb.

İcma həmçinin Avropa İttifaqının Ermənistandakı missiyası ilə insan hüquqları, humanitar məsələlər, mülki şəxslərin qorunması kimi mövzular üzrə əməkdaşlığa hazır olduğunu bildirib.



# Xocalıda Azərbaycan rəsmiləri ilə erməni sakinlər görüşdü

**Milli Məclisin deputatı Ramin Məmmədov Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlər ilə təmaslar üzrə məsul şəxs qismində müəyyən edilib.**

Bu məqsədlə martın 1-də Ramin Məmmədov Xocalı şəhərində, Azərbaycan Respublikası ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlı kontingentinin qərargahında Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin təmsilçiləri ilə görüşüb.

Görüşdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət təbii sərvətlərin qanunsuz istismarını araşdıran monitorinq qrupunun rəhbəri Məsim Məmmədov da iştirak edib.

Görüş zamanı Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan Respublikasına reinteqrasiyasına dair ilkin müzakirələr aparılıb.

Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlər ilə təmaslar davam etdiriləcək.

İctimaiyyətə əlavə məlumat veriləcək.

www.paralel.az
e.mail adresi: paralel_qazeta@mail.ru

Paralel



# Almaniyalı alimdən ölkəsinin ictimai televiziyasına etiraz

## "Qarabağ heç vaxt erməni idarəçiliyində olmayıb"

**Almaniyalı jurnalist Nina Niberqallın fevral ayının 5-də, ölkənin ictimai televiziyası olan ZDF kanalının rəsmi internet səhifəsində Qarabağ məsələsinə həsr olunan qərəzli və təhriflərlə dolu məqaləsi dərc edilib.**

Almaniyalı alim, fəlsəfə elmləri doktoru, *"Şuşanın irsi"* və *"Qarabağ 13-cü əsrdən 1920-ci ilədək. Azərbaycan tarixinin açılımı"* kitablarının



müəllifi Mixael Reynhard Hess həmin məqaləyə oxucu kimi etiraz məktubu yazıb və onu öz *"Facebook"* hesabında paylaşaraq ZDF-ə ünvanlayıb.

Almaniyalı alim bildirib ki, müxbir məqaləsində Qarabağ məsələsinə toxunub: *"Deməli olar ki, bütün alman mediası kimi, bu ictimai yayımçı da, ardıcıl olaraq, münaqişənin mahiyyəti və genezisi ilə bağlı erməni nöqteyi-nəzərindən çıxış edir.*

*Müəllifin qərəzliliyi "Əsasən ermənilərin məskunlaşdığı ərazi vaxtilə, 19-cu əsrin əvvəllərində Rusiya Çar imperiyasının tabeliyinə keçməmişdən əvvəl, erməni məliklərinin hakimiyyəti altında olub" cümləsindən də aydın görünür".*

Mixael Reynhard Hess yazır ki, buna dair sübutları, çox güman ki, yalnız ermənilər tərəfindən yazılmış tarix dərsliklərində tapmaq olar. Qarabağ bəyliklərinin Beşlər Konfederasiyası – Xəmsə (ərəb-fars-Azərbaycan mənşəli söz) kimi də tanınan məlikliklər regional birlik, xüsusən, Səfəvilər sülaləsinin süqutu (1736) ilə Nadir şahın ölümü (1747) arasındakı siyasi cəhətdən olduqca gərgin dövrdə, təxminən, 1750-ci ildə Qarabağ xanı xırda bəylikləri özünə tabe etməzdən əvvəl müəyyən lokal və müvəqqəti gücə malik olub.

Alman alim məktubunda vurğulayıb ki, təxminən 1747-ci ildə əsası qoyulmuş, əraziləri sonradan *"Dağlıq Qarabağ Muxtar Vilayəti"*nə (DQMV) çevrilən Qarabağ xanlığı Rusiya tərəfindən de-fakto (1806) və de-yure (1822) ləğv edənə qədər müstəqil dövlət kimi mövcud idi, hökmdarları isə müsəlman idi və azərbaycanca danışırdılar.





ZDF-in müxbiri Səfəvilər (həm də müsəlman türkdilli sülalənin) hakimiyyətinin uzunmüddətli dövrünü (1501-1736), eləcə də bu ərazinin əsrlərdən bəri indiki azərbaycanlıların dil əcdadları tərəfindən formalaşdırıldığını inkar edir. Beləliklə, Niberqall, erməni tarixşünaslığında geniş yayılmış, *"erməni"* idarəçiliyinin uzaq, lokal məhdud, müvəqqəti və çox vaxt əhəmiyyətsiz mərhələlərinin uzunmüddətli və dərin kökləri olan Azərbaycan-müsəlman hakimiyyəti mərhələlərindən qeyri-mütənasib şəkildə yüksək qiymətləndirildiyi anaxronizm strategiyasını davam etdirir.

Mixael Reynhard Hess diqqətə çatdırıb ki, ZDF-in reportajında çox qəribə və yanlış bir fikir də var: *"Sovet İttifaqının yaranması ilə ərazi bölündü. 1923-cü ildə bir hissəsi Azərbaycan Sovet Respublikasına keçdi, onun özəyi muxtar vilayət oldu"*. Kontekstdən belə çıxır ki, *"ərazi" "Dağlıq Qarabağ"*a məxsus olmalıdır. Əgər sitat gətirilən cümlə düzgündürsə, o zaman "Dağlıq Qarabağ" Sovet İttifaqı yarandıqdan sonra (1922) bölünməli, bölünmüş ərazinin bir hissəsi isə "muxtar vilayət"ə çevrilməli idi. Əslində isə Dağlıq Qarabağ Muxtar Vilayəti (yaxud Muxtar Vilayət) 1921-1923-cü illər arasında bölünməyib, ilk dəfə yaradılıb. Və nə bu muxtar vilayətin bir hissəsi, nə də onu əhatə edən ərazilərin heç biri Azərbaycan Sovet Respublikasına "keçməyib", onların hamısı həmişə Azərbaycan Sovet Respublikasının və ya onun sələfi - Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) tərkibində olub. Niberqallın tezisləri özü-özünü təkzib edir.

*"Ciddi səhvlər və tutarsız tezislər arasında bu faktı da qeyd etmək olar ki, Ruben Vardanyanın Dağlıq Qarabağın "dövlət naziri" adlandırılması yalnız bir xəyali arzu ola bilər, çünki Niberqall, ən azı, başqa bir yerdə, düzgün olaraq, "Dağlıq Qarabağ" "dövləti"nin nə əvvəllər, nə də indi mövcud olmadığını, onu hətta Ermənistanın özünün belə tanımadığını göstərir. Axı olmayan dövlətin "dövlət naziri" necə ola bilər?*

*ZDF-nin R.Vardanyanı saxta dövlət naziri epiteti ilə "hədiyyələndirməsi", Rusiya Prezidenti Vladimir Putinin müharibəsindən sonra, yəqin ki, Qarabağdakı separatçılıq yuvasında özünə yeni iş tapmaq üçün Rusiyanı tərk edən bu rus-erməni biznesmenin keçmişi haqqında bir söz deməməsini də bura əlavə etsək, mənzərə tam aydınlaşar"*, - Mixael Reynhard Hess vurğulayıb.



# Zakaryan: "Nikol 5 min əsgər öldürüb, mart faciəsindən danışır"

**Ermənistan Müdafiə nazirinin keçmiş müavini Artak Zakaryan 1 mart hadisələri haqqında maraqlı fikirlər səsləndirib. AzVision.az xəbər verir ki, o, baş nazir Nikol Paşinyanın faciəyə görə "köhnələr"i yerli-yersiz qınamasını tənqid edib.**

- 1 mart hadisələri Ermənistanda ən çox istifadə olunan mövzudur. 44 günlük müharibə zamanı 5 mindən çox erməni həlak oldu. Bundan başqa, sentyabr müharibəsi zamanı 250 nəfəri öldürən, bir müddət öncə 15 əsgərimizi Azad kəndində kül edən Nikol hökuməti bu gün 2008-ci ildə baş verən faciəni qaldırır. Hadisələr göstərdi ki, hakimiyyətə gələn populistlər üçün etnik ermənilərin həyatı bahasına öz planlarını reallaşdırmaq sanki həyat tərzinə çevrilib. Lazım olan yerdə baraban çalır, lazım olmayan yerdə isə əksinə, unudurlar.

Nikol bu gün 1 mart işinin üstününü açıldığını elan etdi. Lakin qətllərə görə məsuliyyət daşıyanların hələ də müəyyən edilmədiyini bildirdi. Ölkənin ikinci prezidentinə qarşı uydurma iş və məhkəmə qərarı sübut etdi ki, onun 2008-ci ildəki 1 mart hadisələrinin təşkilinə heç bir aidiyyəti olmayıb. Prezident öz fəaliyyətində yalnız qanun çərçivəsində rəhbərlik edib.

Amma sual yaranır, əgər 2008-ci ildə iğtişaşlar və toqquşmalara səbəb olan bəzi müxalifətçilərin tribunalardan çağırışları olmasaydı, 1 martı təşkil etmək mümkün idimi? Bu kimə sərf etdi? - eks nazir müavini gileylənib

O iddia edib ki, mart hadisələrinin təşkilatçıları Ermənistanın daxili siyasi sabitliyini pozmaq və Robert Köçəryandan sonra prezident seçilən Serj Sarkisyanın Qarabağ məsələsində danışıqlar mövqelərini zəiflətmək üçün hər şeyi etməyə çalışıblar. Guya ikinci və üçüncü prezidentlər ölkədə iğtişaşlara səbəb olan daxili siyasi təxribatın qarşısını almaqla Ermənistanın güclü danışıqlar mövqeyini qoruyub saxlaya biliblər: *"2018-ci ildə eyni məzmunlu müxalifət, indiki iqtidar mart hadisələrini təkrarlamaq istəyirdi. Serj Sarkisyan kameralar qarşısında "1 martı unutmusunuz" dedikdə, çoxları bunu hədə kimi qəbul etdi. Bununla belə, 2018-ci ilin aprel-may aylarında Nikol baş nazir seçilməsəydi, "Mənim addımım" hərəkatı xalqı sivil toqquşmalara və üsyanlara aparmağa hazır idi. Paşinyan aşkar deyirdi ki, "ya mən baş nazir olacam, ya da bu ölkədə baş nazir olmayacaq"*.

Xatırladaq ki, 2008-ci il martın 1-də İrəvanda qanlı iğtişaşlar baş verib. Nəticədə 10 nəfər dinc sakin öldürülüb, 200-ü müxtəlif dərəcəli xəsarət alıb, daha 100 nəfər isə həbs edilmişdi. 1 mart hadisələrinin öyrənilməsi və faktların toplanması üzrə qrup uzun illər hadisələrdə əli olanları üzə çıxara bilmədi.

Erməni cəmiyyəti həmin gün yaşananlarda Serj Sarkisyan və komandasının birbaşa əli olduğunu deyir. Ozamankı cinayətkar rejimin məhkəmə qarşısına çıxarılaraq layiqli cəza alması isə təmin olunmayıb.

***Tural Tağıyev***



# Qarabağda torpaq islahatı:

## Məmur-fermerləri ora buraxmaq olmaz

**Azərbaycan hökuməti qərar verib ki, Qarabağda torpaq islahatı keçirməzdən öncə İsrailin və Türkiyənin təcrübələrini öyrənsin. Çox güman ki, Türkiyədəki zəlzələni nəzərə alaraq kənd təsərrüfatı naziri İnam Kərimov ilk səfərini İsrailə edib, hazırda orada təcrübə öyrənməklə məşğuldur.**

Çalışıb qısa yazacam.

Birincisi, təcrübələri öyrənilmək üçün çox uğursuz ölkələr seçilib. İsraildə torpaq islahatı 2009-cu ildə keçirilib. İslahat kənd təsərrüfatı torpaqlarını əhatə etməyib, həyətyanı torpaqların və daşınmaz əmlak altındakı icarədə olan torpaqların şəxsi mülkiyyətə verilməsini nəzərdə tutub. Məqsəd evlərin qiymətinin aşağı salınması, torpaqların idarə olunması ilə bağlı dövlət xərclərinin və bürokratik əngəllərin azaldılması olub. Bu gün İsraildə kənd təsərrüfatı təyinatlı torpaqların sahəsi vur-tut 450 min hektardır, onun təxminən 160 min hektarı suvarılır. Müqayisə üçün deyim ki, bu gün Azərbaycanda təkcə “Agro Dairy”nin əkdiyi torpaqlar 100 min hektara yaxındır. İsaildə torpaqların cəmi 7%-i özəl sektordadır. Bu gün İsraildə hansısa uğurlu torpaq islahatından danışmaq yersizdir. Bu ölkənin kənd təsərrüfatı möcüzəsinin səbəbi yeni bitki sortlarının yetişdirilməsi, suvarmanın innovativ sistemlərinin və qabaqcıl texnologiyanın tətbiqidir.

Türkiyəyə gəlincə, yenə qısa yazıram, bu ölkədə torpaq islahatına iki dəfə cəhd olunub, ikisi də uğursuzluqla nəticələnib, ikincidə CHP hətta hakimiyyəti Adnan Menderesə təhvil verməyə məcbur olub, yəni torpaq isalahatı keçirib, torpaqları ağalardan alıb yoxsul kəndlilərə vermək cəhdinin bədəlini ağır ödəyib, çünki Menderes də böyük torpaq sahələri olan ağa idi.

İkincisi, hökumət, Kənd Təsərrüfatı Nazirliyinin dili ilə torpaq islahatı nəticəsində kiçik torpaq sahələrinin yaranmasını torpaq islahatının naqis tərəfi kimi təqdim edir. Halbuki, kənd təsərrüfatı az-çox inkişaf eləmiş ölkələrin təcrübəsi göstərir ki, bu sektor kiçik və orta fermerlərin çiynində dayanır. İnkişaf eləmiş ölkələrdə hökumətlər bizimkilərin xoşuna gəlməyəcək əks taktika işlədir, torpaqların bir neçə əldə cəmləşməsinin qarşısını almaq üçün məhdudiyyətlər tətbiq edir.

Məsələn, bu şəkildə: bir şəxsin 100 ha-dan (Rumıniya), 300 ha-dan (Macarıstan), 500 ha-dan (Polşa) çox torpaq sahəsi əldə etməsinə qadağa qoyur. Və yaxud digər bir tənzimləmə aləti: pay torpaqları satıla bilməz, yalnız icarəyə vermək mümkündür.

Dünya Bankının ekspertlərinin və tanınmış tədqiqatçı alimlərin araşdırmaları göstərir ki, torpaqların bir neçə əldə cəmləşməsi iqtisadi inkişafı zəiflədir, kənd yerlərində yoxsulluğu artırır. Kənd təsərrüfatı sahəsində böyük təsərrüfatlar yalnız o zaman iqtisadiyyata pozitiv töhfə verir ki, dəqiq və ədalətli işləyən dövlət institutları mülkiyyət hüququnun qorunmasını təmin etsinlər və torpaqlardan təyinatına uyğun istifadə olunmasına ciddi nəzarəti həyata keçirsinlər. Eyni zamanda, kiçik və orta fermerlərin də böyüklər kimi ucuz maliyyə mənbələrinə və texnologiyalara rahat çıxışı olsun.

Torpaq islahatının keçirilməsi o zaman uğurlu sayılır ki, torpaqların kənd yerlərində yaşayanlar arasında bərabər və ədalətli bölgüsü həyata keçirilsin, torpaqların kimlərinsə əlində cəmlənməsinə imkan verilməsin.

Və nəhayət, bu günədək aparılmış araşdırmalar onu da təsdiq edir ki, torpaqların inhisarçıların, məmurların əlində cəmləşməsi səviyyəsi ilə ölkədəki demokratiyanın səviyyəsi arasında tərs mütənasib əlaqə var.

***İqtisadçı ekspert*: Qalib Toğrul**

# Qiyməti özündən çox göz yaşardır "Soğan panikası"

Dünyanın bir çox ölkələrində tərəvəzə tələbatın artması müşahidə edilir. Bəzi ölkələrdə adi soğan demək olar ki, qızıl qiymətinə satılır.

Avropada keçən ilki quraqlıq səbəbindən məhsul yığımı on faiz azalıb. Bu da təbii ki, qiymətlərin bahalaşmasına səbəb olub. Avropa bazarında isə qıtlıq artmaqda davam edir.

Bəzi Asiya ölkələrində - məsələn, soğanın Avropaya göndərildiyi Qazaxıstan və Özbəkistanda ajiotaj səbəbindən ixrac dayandırılıb. İxrac qadağası Qırğızıstan və Tacikistan tərəfindən də tətbiq edilib.

Amma əsl “soğan panikası” Filippində başlayıb. Bu ölkədə soğanın qiyməti bir neçə ay ərzində altı dəfə artaraq kiloqramı 13 dollara çatıb. Əslində, bu qiymət əsl paradoksdur: soğan indi Filippində toyuqdan üç dəfə bahadır. Həm də ölkədəki orta günlük əmək haqqından çoxdur.

Ajiotajın səbəbləri məhsulun kəskin azalması və möhtəkirlərdir. Yerli restoranlarda soğanın istifadəsi kəskin şəkildə məhdudlaşdırılıb.



Qiymətin bahalaşması ilə “soğan turizmi” geniş vüsət almağa başlayıb: Birləşmiş Ərəb Əmirliklərində işləyən Filippin sakinləri oradan özləri ilə soğan gətirirlər. Bu, sərfəli görsənir, lakin soğan BƏƏ-də heç də ucuz deyil.

Ancaq problem təkcə soğanla bağlı deyil. Böyük Britaniyanın bir çox supermarketlərində tərəvəz rəfləri boşdur. Pərakəndə satıcılar bir əldən tərəvəz satışına məhdudiyyətlər qoyur, qiymətlər yüksəlir.

“Tərəvəz böhranı” Türkiyədəki zəlzələ nəticəsində yaşanan problemlər səbəbindən ixracın məhdullaşdırılması fonunda da da şiddətlənib. Beləliklə, ümidlər bu il istehsal olunacaq məhsuladır.

Qeyd edək ki, Azərbaycanda soğanın, eyni zamanda digər tərəvəzlərin də qiyməti ilin əvvəlindən yüksəlib. Pərakəndə satış mərkəzlərində soğan 1,20 AZN, katof 1,40 AZN, pomidor 4-6 AZN, xiyar 3,50-4,50 AZN, göyərtilər 0,20-0,25 AZN, bibər 3-4 AZN-ə satılır.

Region bazarlarında soğanla bağlı yaşanan böhran səbəbindən ölkəmizdə də bu məhsulun qiymətlərində kəskin bahalaşma müşahidə olunurdu. Ölkədəki ehtiyatların ixraca yönəldilməsi də qiymətləri kəskin artırmışdı. Bunu nəzərə alaraq Nazirlər Kabinetinin fevral ayında Azərbaycanda soğanın ixracına məhdudiyyət qoyulması, eyni zamanda 2023-cü il mayın 1-dək məhsulun idxalı gömrük rüsumundan azad olunması barədə qərar verdi.

“Azərbaycanda soğanın qiyməti qərarlar qəbul edilənə qədər hansı səviyyədə idisə, o səviyyədə də qalıb. Soğanın bir kiloqramının pərakəndə satış qiyməti kütləvi satış yerlərində 1-1,15 AZN, supermaklretlərdə 1,30-1,40 AZN, topdan satış yerlərində 0,90-0,95 AZN-ə satılır”. Bunu Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə AzVision.az-a açıqlamasında deyib.

- Azərbaycanda soğanın qiymətinin kəskin artımı region bazarındakı ilkin mərhələdə olan trendlərə uyğun baş verdi. Bundan sonrakı proseslərin Azərbaycanda soğanın qiymətinə təsirini gözləmirik. Bizdə olan məlumata görə, qərarlar qəbul olunana qədər sahibkarlar minlərlə ton soğanı ixrac etməyə hazırlaşırdı, - F.Fikrətzadə əlavə edib.

Azərbaycanda digər məhsulların da bahalaşmasına gəlincə Mərkəz direktoru qeyd edib ki, hazırda bazarlarda kartofun qiyməti mövsümə uyğun stabilləşib.

“Yeni məhsullar da bəzi regionlardan daxil olur. Ölkədə hər hansı məhsul üzrə qıtlıq gözləntisi yoxdur, o cümlədən də kartof üzrə.

Bu gün logistika problemlidir. Eyni zamanda gübrənin də qiyməti bahadır. Bu baxımından bütün dünyada ərzaq qiymətlərində artım qaçılmazdır. Sadəcə bəzi ölkələr var ki, bunlar qiymətin baha olması məqbulunda məhsulun olub-olmamasının da qeydinə qalmırlar. Ancaq hansı mənbələr hesabına olur-olursa istehlak bazarında bütün ərzaqların təmin olunması dövlətin bir nömrəli prioritetlərindəndir. Ölkəmizdə lazım olsa sahibkarlara böyük güzəştli kreditlər də verilir ki, onun ehtiyatları yaradılsın. Yəni bu məsələdə dövlət heç bir qənaətə getmir”.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) departament rəhbəri Nicat Hacızadə bildirib ki, 2023-cü il yanvar ayında Azərbaycanda aqrar məhsulların ixracı 17,2% azalaraq 49,9 milyon ABŞ dolları təşkil edib. Sözügedən dövr ərzində aqrar məhsulların azalmasının hərəkətverici qüvvəsi meyvə-tərəvəz, dənli bitkilər, tütün və tütün əvəzedicilərinin azalması ilə əlaqədar olub.

- Xüsusilə, dənli bitkilərin ixracında 100% azalma müşahidə edilib ki, bu da 2022-ci ildə Şərqi Avropa regionunda geoiqtisadi durumun dəyişməsi nəticəsində Nazirlər Kabineti tərəfindən ərzaq təhlükəsizliyi və istehlakçıların qida məhsullarına rahat əlçatanlığının təmin edilməsi məqsədilə dənli bitkilər daxil olmaqla, bir sıra məhsulların ixracının tənzimlənməsi ilə əlaqədardır. Belə ki, ötən ilin yanvar ayında 5,5 milyon ABŞ dolları dəyərində dənli bitkilərin ixracı həyata keçirilsədə, bu ilin yanvar ayında hər hansı ixrac əməliyyatı qeydə alınmayıb, N.Hacızadə vurğulayıb.

Departament rəhbəri qeyd edib ki, 2023-ci ilin yanvar ayında Azərbaycanın meyvə-tərəvəz ixracında 14,7% azalma qeydə alınıb. Müvafiq ay ərzində tərəvəz ixracı 21,3% azalaraq 12,3 milyon ABŞ dolları, meyvə ixracı isə 12% azalaraq 28,6 milyon ABŞ dolları təşkil edib.

”2023-ci ilin aqrar məhsullarında nəzərə çarpan azalmanın əsas səbəblərindən biri dünya ərzaq qiymətlərinin ötən il ilə müqayisədə enməsidir. FAO-nun Ərzaq Qiymətləri İndeksi 2023-cü ilin yanvar ayında orta hesabla 131,2 bənd təşkil edərək, dekabr ayına nisbətən 1,1 bənd (0,8 faiz) azalaraq, ardıcıl 10-cu aylıq enişi qeyd edir. Bu son enişlə indeks 2022-ci ilin mart ayında çatdığı zirvədən 28,6 bənd (17,9 faiz) aşağı düşüb. Yanvarda indeksin azalmasına bitki yağları, süd məhsulları və şəkərin qiymət indekslərindəki eniş səbəb olub. taxıl və ət əsasən sabit qalıb”.

***Aytən Zəhra***

# Bu il üç dəfə əlavə maaş ödəniləcək: Qərar kimlərə şamil olunur?



**Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov deyib.**

Deputatın sözlərinə görə, bu qayda Nazirlər Kabinetinin 21 yanvar 2023-cü il tarixli 17 saylı qərarına əsasən tənzimlənir: *"Həmin qərarla dövlət orqanlarında çalışan dövlət qulluqçusu olmayan işçilərin (qeydiyyatçı, nəzarətçi, təsərrüfat işçisi, xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s.) aylıq vəzifə maaşları müəyyənləşib. Belə ki, ali kateqoriya dövlət orqanlarında aylıq əməkhaqqı 400, 1-ci kateqoriya dövlət orqanlarında 385, 2-ci və 3-cü kateqoriya dövlət orqanlarında 365, 4-cü və 5-ci kateqoriya dövlət orqanlarında isə 345 manat nəzərdə tutulub.*

*Eyni zamanda, həmin qərarda qeyd olunan işçilərin mükafatlandırılması məqsədilə hər il növbəti il üçün təsdiq edilən dövlət büdcəsində onların çalışdıqları dövlət orqanlarında həmin işçilər üçün müəyyən olunmuş aylıq vəzifə maaşının üç misli həcmində əlavə vəsait nəzərdə tutulur. Gözlənilir ki, il ərzində əlavə maaşlar üç dəfə mükafat formasında, bayram günlərində ödəniləcək".*

Vüqar Bayramov qeyd edir ki, əlavə maaşlar həmin kateqoriyalar üzrə dövlət orqanlarında çalışan və dövlət qulluqçusu olmayan işçilər üçün nəzərdə tutulub: *"Bu qurumlara isə ali, 1, 2, 3, 4 və 5-ci kateqoriya dövlət orqanları aiddir.*

*O baxımdan əgər sizin çalışdığınız qurum həmin kateqoriyalardan birinə (ali, 1, 2, 3, 4 və 5-ci kateqoriyalar) uyğundursa və dövlət qulluqçusu deyilsinizsə, eləcə də qeydiyyatçı, nəzarətçi, təsərrüfat işçisi, xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s. işlərdə çalışırsınızsa, o halda sizə ödəniş nəzərdə tutulacaq. Bütövlükdə, hər bir işçi çalışdığı qurumun mühasibatlığına müraciət edərək ödənişinin nəzərdə tutulub-tutulmamasını dəqiqləşdirə bilər".*




# "Azərsu" Ərəbzəngi rolunda

Artıq üçüncü gündür ki, Masazır qəsəbə sakinləri su üzünə həsrətdirlər, Amma bunun səbəbini əhaliyə anlatmaq nədir, heç xəbərdarlıq belə, edilmir. Mərkəz Bakının on addımlığında yerləşən bu qəsəbənin sanki yiyəsi yoxdur. Amma belə deyil, yiyəsi var, sadəcə, onları qəsəbənin sosial problemləri deyil, satıla biləcək torparları daha çox düşündürür. Hazırda bu yazını yazdığım vaxt artıq bir saatdır ki,işıqlar da sönüb. Bu da qəsəbədə adi haldır. Qayıdaq su məsələsinə, artıq səbr kasam daşdı və bunun səbəbini öyrənmək üçün zəng etdiyim nömrələrdən və 955 «Qaynar xətt» nömrəsindən cavab ala bilmədiyimdən üz tutdum,qəsəbədəki nasos stansiyasına. Gördüklərim məni şoka saldı desəm, inanmayacaqsınız. 300 mindən çox insana xidmət edən bu stansiya, yəqin ki, burada təxminən 10 min insan yaşayanda hardasa, 1950-60 - cı illərdə inşa edilib və o gündən bir dəfə də təmir deyilən şey görməyib. O zaman nasosxanada iki nasos muhərriki olub, yəni təxminən 10 min əhali yaşayanda, bu gün isə qəsəbədə 300 mindən artır əhali yaşayır və bir nasosa möhtac qalıb. «Azərsu», demək olar ki, hər il suyun qiymətini artırır, dövlətdən milyonlarla dotasiya alır, amma bir soruşan yoxdur ki, bu pulları «Azərsu» rəhbərliyi hara xərcləyir. Onların özlərində də bir abır-həya yoxdur ki, bu qədər yedik, taladıq bir az da xalqı düşünək. Mən dedim, qalanı aidiyyəti qurumların işidir .

P.S. İndilərdə yenicə su gəlməyə başlamışdı ki, işıqlar söndü. Bu qədər, bizim işimiz Allah qalıb deyəsən.

***Yusif Seyid***

# «Mədəniyyətsizliyə» yol verən mədəniyyət işçiləri cəzalandırıldı

## Ağcabədidə fəaliyyət göstərən 5 mədəniyyət müəssisə rəhbərinə töhmət verilib

**Mədəniyyət Nazirliyinin Ağcabədi Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən 5 müəssisə rəhbərinə töhmət verilib.**

Bununla bağlı idarə rəisi Qalib Hasanov əmr imzalayıb.

Əmrlə Yaqub Məmmədov adına Ağcabədi rayon Mədəniyyət Mərkəzinin direktoru Odər Ağayevə, Ağcabədi rayon Kəhrizli kənd uşaq musiqi məktəbinin direktor vəzifəsini müvəqqəti icra edən Elvin Məmmədova, Ağcabədi rayon Boyat kənd uşaq musiqi məktəbinin direktor vəzifəsini müvəqqəti icra edən Şahnaz Əhmədova, Laçın rayon Mədəniyyət Mərkəzinin direktoru Sadıx Axundova, Laçın rayon Şəmkənd kənd uşaq musiqi məktəbinin direktor vəzifəsini müvəqqəti icra edən Qəmər Hüseynova töhmət verilib.

Onlara töhmət verilməsinə səbəb isə "Əmək və Məşğulluq" altsistemində (ƏMAS) əməkdaşların əmək müqaviləsi bildirişlərinin icrasına vaxtında və düzgün qaydada yerinə yetirilməsinə nəzarət, eyni zamanda işdən azad edilmiş əməkdaşların xitam əmrləri haqqında məlumatları qanunda nəzərdə tutulmuş müddət ərzində sistema daxil etməmələri olub.







# Bakı məktəblərində monitorinqlər aparılır

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili və idarə olunması ilə bağlı operativ monitorinqlər keçirilir.

İdarədən verilən xəbərə görə, monitorinqlərin təşkil olunmasının əsas məqsədi seçmə üsulla müəyyənləşdirilmiş məktəblərdə tədrisin təşkili vəziyyətinin öyrənilməsi şagirdlərin dərsə davamiyyətinin yoxlanılmasından ibarətdir. Təhsil müəssisələrinin idarə olunması, tədris və təlim-tərbiyə prosesinin təşkilinin effektivliyinin artırılması da monitorinqlərin əsas hədəflərindəndir.

Monitorinqlərin nəzərdə tutulan əhatə dairəsinin təmin olunması üçün BŞTİ tərəfindən beş komissiya yaradılıb. Monitorinqlər zamanı təhsil müəssisələrində məktəb sənədləri ilə işin təşkili, infrastruktur və maddi-texniki təminat, dərs prosesinin düzgün qurulması məsələləri ilə bağlı müşahidələr aparılır.

Monitorinqlərin yekununda ümumi təhsil müəssisələrində təlimatların tələblərinin icrası, şəxsi nümunə və sosial məsuliyyət, məktəb sənədləri ilə iş, fənn müəllimlərinin təlim prosesinə hazırlıqlı qoşulması, dərs prosesində şagirdlərin aktivliyinin artırılması, şagird nailiyyətlərinin və davranışlarının obyektiv qiymətləndirilməsi ilə bağlı müvafiq təklif və tövsiyələr verilir.

Qeyd edək ki, monitorinqlərin sistemli və ardıcıl şəkildə davam etdirilməsi və bütün ümumi təhsil müəssisələrini əhatə etməsi nəzərdə tutulur.

# RAMAZAN ORUCU ALLAHIN TƏRBİYƏ PROQRAMIDIR

**I YAZI**

**1) "Siz ey iman edənlər!"**

Uca Allah Qurani-Kərimdə vəsiyyət ayələrindən sonra yeni bölməyə keçir, oruc ayəsini açıqlayır. Sözə "siz ey iman edənlər" xitabı ilə başlayır, imanla oruc tutmaq arasında bağ qurur. Qurani-Kərim imanla saleh əməli bir arada təqdim edir: saleh əməlsiz iman ölüdür, həyata daşınmamış, yaşanmamış, sözdə qalmış, quru, təsirsiz, insanı ilahi dəyərlər uğrunda fəaliyyətə yönəltməyən, saleh əməllərə yol açmayan imandır. İmansız əməl də bərəkətsizdir.

Ayədəki "siz ey iman edənlər" xitabı bu mənaları ehtiva edir: imanınızda səmimi isəniz, imanınız fəal/işləkdirsə, yəni sizi azadlığı, ədaləti, xeyri, elmi, bərəkəti, barışı, mərhəməti, qardaşlığı çoxaltmağa yönəldirsə, bunun sübutu olaraq oruc tutun. "Siz ey iman edənlər" müraciəti orucun çox önəmli ibadət olduğunu söyləyir, deyir ki, oruc tutmaq Allahın rizasını qazanmaq uğrunda cihadın ayrılmaz parçasıdır, orucda bərəkət var, o sizi yenidən inşa edəcək, sizi ilahi nemətlərə qovuşduracaq, sizə özünüzü idarə etməyi öyrədəcək, sıxıntılara dayanma gücü verəcək, sizi imtahana hazırlayacaq, axirət səadətinə qovuşduracaq.

Allah möminlərin sevə-sevə, mənasını anlaya-anlaya oruc tutmalarını istəyir, "siz ey iman edənlər" xitabı ilə onlara ruh, cəsarət verir, sanki, bunu demiş olur: siz möminlərsiniz, sizi böyüdəcək, dəyərinizi artıracaq oruc ibadətini yerinə yetirməyə gücünüz çatacaq. Bu xitab oruc tutmağa təşviq edir, sən başlasan, Allahın yardımı gələcək, bu mübarək əməlin içində ilahi riza, xeyir, bərəkət, səbir - dirəniş gücü var deyir...

Allahın seçdiyi, əmr buyurduğu, biçimini (icra şəklini) müəyyən etdiyi ibadətlər insanla Allah arasındakı mənəvi bağlardır, insanın güc qaynaqlarıdır, ibadətlər insana Allaha qulluq şüuru verir, deyir ki, qulluq ancaq Onadır, Ona qul olan azad olar, Allahdan başqasına qulluq haramdır, şirkdir, zülmdür, köləlikdir. İbadətlər imanı, iman fitrəti, fitrət insanı qoruyur.

Allah insana ən böyük dəyər olan tövhid - azadlıq (insana kölə olma, insanı kölə etmə) anlayışını öyrətmək üçün proqramlar nazil edir: namaz, zəkat, infaq, həcc... Bu ibadətlərin hər birinin hədəfi tövhid anlayışını öyrətmək, onu yaşam (həyat) biçiminə çevirmək, insana Allaha qulluq şüuru vermək, tövhid düşüncəsi ilə həyat (ailə, iş, sosial münasibətlər...) arasında bağ qurmaqdır.

Qurani-Kərimin tanıtdığı hər anlayış və ibadətlə həyat arasında qırılmaz bağ var, məsələn, Allah buyurur ki, O hər şeyi görür, bilir və eşidir. İnsanın bu ölçüyə inanmasının həyati (praktik) qarşılıqlarından bir neçəsini sayaq: Allahın hər şeyi görən, bilən, eşidən varlıq olduğuna iman insanı bütün pisliklərdən qoruyar - Allahı bu ölçülərlə tanıyan insan zülm etməz, yalan danışmaz, haram yeməz, hər an nəzarətdə olduğunu bilər, Allahla arasına vasitəçilər qoymaz, yəni şirkdən qaçar, görən, bilən, eşidən Allah inancı insana güc, ümid, güvən, səbir verər, onu sevgiyə, barışa, mərhəmətə, ədalətə, xeyrə yönəldər...

Allahın tərbiyə proqramlarından birinin də adı Orucdur. Oruc adlı tərbiyə (ağlı, vicdanı, iradəni inşa) proqramının içində bu dəyərlər var:

***- Allahın Ramazan proqramında QURANİ-KƏRİM var, Qurani-Kərim Ramazanın ruhudur, ilahi mesaj bu ayda nazil olduğu üçün oruc tuturuq (Tövratın, İncilin, Zəburun da Ramazan ayında nazil edildiyi ilə bağlı rəvayətlər var);***

***- bu proqramda ŞÜKÜR var - oruc tutaraq insanlığa hidayət rəhbəri olan Qurani-Kərimi nazil etdiyinə görə Allaha şükür edirik. Hər nemətin şükrü öz cinsindəndir, məsələn, ağılın şükrü doğru düşünmək, qəlbin şükrü iman etmək, vicdanın şükrü şəfqətli, mərhəmətli olmaq, bütövlükdə insan olaraq yaradılmağın şükrü Allaha təslim olmaq - Onun buyurduğu kimi yaşamaqdır. Belə bir sual verə bilərsiniz: insanlığın hidayət rəhbəri olan Qurani-Kərimin nüzuluna görə Ramazan ayında niyə məhz oruc tutmaqla şükür etmək biçimi seçilmişdir, bəlli bir müddət ac qalmaqla Qurani-Kərim arasında hansı əlaqə var? Cavabımız var: Ramazan ayında bəlli bir müddət mədəmiz ac qalır, ağlımız, ruhumuz, vicdanımız, qəlbimiz isə doyur. Ramazan ayı ağılın, ruhun, vicdanın, qəlbin ən çox doyduğu, qidalandığı aydır. İnsan ac qaldıqca, ya da az yedikcə düşünmək imkanı artır, ehtiyac ağılı hərəkətə keçirir, bədən ac qaldıqca ruhun qanadları açılır, qəlb imanla doyur. Qurani-Kərim də insanın ağlını, ruhunu, vicdanını, qəlbini doyuran kitabdır, ruzidir, nemətdir, təsadüfi deyildir ki, Qurani-Kərimin mübarək adlarından biri də Ruzidir. O, ağılın ruzisi olaraq elmi seçir, oxu buyurur, varlığı Allahın adı ilə oxu, yəni yaradılan hər varlığa yerləşdirilmiş elmi kəşf et, kəşf et ki, inkişaf edəsən, o elmlərin gerçək sahibini tanıyasan, Ona təslim olasan, nəticədə, həqiqi azadlığa qovuşasan, dəyər qazanasan, azad olmayanın dəyəri olmaz ki!***

Allah qəlbin ruzisi olaraq imanı təklif edir, iman əmin olma halıdır, qoruyucu sistemdir, güvən və ümiddir. Allah buyurur ki, vicdanın ruzisi mərhəmət, şəfqət, sevgidir, mərhəmət barış içində yaşamağın ana ölçülərindən biridir. Allahın ölçüsü deyir ki, iradənin ruzisi seçim haqqıdır, iradə seçmək deməkdir, seçim üçün ən azı iki yol olmalıdır, iradə nemətinin şükrü də doğru olanı seçməkdir.

Toplasaq, Ramazan ayı mədənin bəlli bir müddət ac qaldığı, ağılın, qəlbin, vicdanın isə doyduğu - Qurani-Kərim nemətləri ilə qidalandığı aydır. Ona görə də biz Ramazan ayında nazil olmağa başlayan Qurani-Kərimə görə bu kitabın sahibi olan Allaha bir ay oruc tutaraq şükür edirik. Deyirik ki, ağıl, qəlb, vicdan, iradə mədədən daha dəyərlidir, mədəni ac saxlamadığın kimi ağıl, vicdan və qəlbini də ac saxlama, onları da sağlam, təmiz, halal qidalarla doyur, ey insan, bil ki, Qurani-Kərim fitrətin qidasıdır;

***- Allahın oruc adlı tərbiyə proqramında Niyyət var. Niyyət bir şeyin mahiyyət və hədəfini anlayaraq onu etməkdir, şüurlu olmaqdır, O, bizim şüurlu müsəlman olmağımızı istəyir;***

***- oruc proqramında Qurani-Kərimi ANLAYARAQ OXUMA var (bütün günlərdə, bütün aylarda Qurani-Kərim oxumağın şərti onu anlamaqdır, ancaq ramazanın da özəl yeri var). Qurani-Kərimin üzərimizdə dörd haqqı var: oxumaq, anlamaq, yaşamaq - dəyərlərini həyatımıza daşımaq (Allahın buyurduğu kimi yaşamaq), öyrətmək. Bədəni, ağlı, qəlbi, vicdanı, iradəsi, əməli ilə tam oruc tutan insanlar bütün varlıqları ilə Qurani-Kərimi anlamağa köklənirlər;***

***- Allahın oruc adlı tərbiyə proqramında TƏMİZLİK var, ac qaldıqca bədən, Quran-Kərimi anladıqca, Onunla doyduqca ağıl, ruh, vicdan, qəlb, iradə təmizlənir, təmizlənən insan həqiqəti görür, Allaha təslim olur, azadlığına qovuşur (təmizlənməyən azad olmaz), dəyər qazanır, fitrət insanı olur;***

***- oruc proqramında TƏQVA var, təqva qorunmaqdır, oruc tutmağın hədəfidir, anlamlı həyatın ölçüsüdür, Allah, varlıq qarşısında məsuliyyət şüurudur - dəyərin məsuliyyətli olduğun qədərdir, sənə yüklənmiş vəzifəni yerinə yetir, ədalətli ol, zülmə qarşı dirən, barışı, xeyri, qardaşlığı, elmi, mərhəməti çoxalt, Ona təslim ol ki, qoruna biləsən, ey insan;***

***- oruc proqramında DUA var, dua Allaha güvənin, təslimiyyətin ifadəsidir, insanın güc qaynağıdır, ilahi nemətdir, ümiddir (ümid etməyən dua etməz), Allahla insan arasındakı qırılmaz bağdır, ən gözəl dua əməli duadır, iş, hərəkət, davranışdır;***



***- oruc proqramında SAXUR və İFTAR var - oruc süfrəsi bizə nemətin sahibini, insanın əməyini tanıdır, nemətlərin dəyərini öyrədir, şükrə yönəldir, acları, yoxsulları unutma, israf etmə deyir, israf edənlər şeytanın dostlarıdır;***

***- oruc proqramında MƏDƏNİ AC SAXLAMAQ var, insan ilahi rizanı qazanmaq üçün bir ay bəlli vaxtda ac qalır, Allahın Ramazan ayında ac qal əmrinin bərəkətini də elə bu aydaca hiss etməyə başlayır, belə ki, nəfsin əli, qolu bağlanır, inadı qırılır, ruhun qanadları açılır, insan azadlığın ətrini hiss edir, hüzura qovuşur;***

***- oruc proqramında MƏRHƏMƏT var, mərhəmət maddi, mənəvi ehtiyacı olanın sıxıntısını həll etməkdir, ac qalan insan aclığı, ac olanları anlayır, onları düşünür, yardıma yönəlir, başqalarının acısını hiss etdiyimiz qədər insanıq;***

***- oruc proqramında İMAN var, imanın qarşılığı Allaha tam güvənməkdir, ümiddir, Ramazan ayı imanı gücləndirmə ayıdır;***

***- oruc proqramı İLLİK HESABAT ayıdır, öncə yaşadığımız ilin hesabını düşünür, sonra da yaşayacağımız ilin planlarını qururuq;***

***- oruc proqramında İRADƏ var, biz şüurlu olaraq Ramazan ayında bir ay ac qalmağı seçirik, seçimimizin haqqını veririk, bədəl ödəyirik, nəticədə, iradəmizi gücləndirməklə seçim və əzmimizin mükafatına qovuşuruq;***

***- oruc proqramında SƏBİR var, səbir dirənişdir, iman, ağıl, iradə ilə sıx bağı olan anlayışdır, həqiqət uğrunda mübarizədə dirən, ey insan;***

***- oruc proqramında RƏHMƏT var, şüurlu biçimdə, mədəsi, ağlı, vicdanı, iradəsi, qəlbi, əməli ilə oruc tutan insan Ramazan ayında ilahi rəhməti bütün varlığı ilə hiss edir, bu rəhmətin bərəkəti ilə özü də mərhəmətli olur;***

***- oruc proqramında BƏRƏKƏT var, bərəkət üç şeyi əhatə edir: xeyirdir, çoxdur, davamlıdır, Ramazan ayı ağlımızın, vicdan, qəlb və iradəmizin ilahi ruzilərlə - bərəkətlə ən çox doyduğu aydır;***

***- oruc proqramında ZƏKAT var, doğrudur, zəkat sadəcə Ramazan ayına aid bir ibadət deyil, ancaq müsəlmanlar zəkatlarını daha çox Ramazan ayında verirlər. Zəkat ehtiyac sahibi olan insanların zəngin insanların sərvəti üzərindəki haqqıdır. Zəkat ibadəti insanın sərvət təsəvvürünü ilahi ölçülərlə inşa edir: ruzinin sahibi ər-Rəzzaq olan Allahdır, çalış, halalından qazan, halal işlərə xərclə, ehtiyacın qədər istifadə et, paylaş, ehtiyac sahiblərin sərvətin üzərində haqqı olduğunu unutma, sərvətini axirət azuqəsinə çevir, bunun üçün sərvətinlə xeyri çoxalt, zəkatın miqdarını Allah belə müəyyən etmişdir: ehtiyacından artığını ver;***

***- oruc proqramında İNFAQ var - infaq Allah rizası üçün vermək, sərvəti paylaşmaqdır. Qurani-Kərimdə üç şey Allah yolunda deyilərək əmr edilir: cihad, hicrət, infaq. İnfaq yarar (xeyir) verən bir şeyi ona möhtac biri ilə qarşılıq gözləmədən paylaşmaqdır. İnfaq sadəcə sərvətlə gerçəkləşən bir ibadət deyil, elm öyrətmək, sevgi, şəfqət, mərhəmət də infaqdır. İslam deyir ki, yoxsulun, məzlumun, yetimin, əsirin dini, milliyyəti, cinsi soruşulmaz, insan olduğuna görə yardım edilər. İnfaq etmək mömini münafiqdən ayıran əlamətdir, xas qulların işidir, canını vermək infaqın zirvəsidir, infaq sağlam cəmiyyətin zəmanətidir, malı, elmi, əməyi, sevgini paylaşmaqdır, Allahın verdiyindən verməkdir. İnfaq imanın meyvəsidir, gözəl əxlaqdır, axirət azuqəsidir, islam mədəniyyətinin ruhudur, sosial bağdır. İnfaqın zamanı, həcmi, miqdarı yoxdur;***

***- oruc proqramında ÜMMƏT ŞÜURU var - bütün müsəlmanlar eyni ayda, eyni məqsədlə oruc tutur, eyni duyğuları paylaşırlar, oruc bizi qardaşlığa, birliyə, ümmət olmağa, insanlığın ortaq dəyərlərini paylaşmağa yönəldir;***

***- oruc proqramında HAQQA DƏVƏT var, bir çox insan məhz Ramazan ayında tövbə edir, Allaha yönəlir, insanların ağlı, qəlbi, vicdanı bu dönəmdə dəvətə daha açıq olur;***

***- oruc proqramında BARIŞ, HÜZUR var deyə bilərik ki, müsəlman ölkələrində cinayətlərin ən az olduğu ay Ramazandır, Ramazan ayı yaxşı olana təşviq, pis olandan çəkindirmə ibadətinin zirvə nöqtəsidir;***

***- oruc proqramında SOSİAL ƏLAQƏLƏRİ ARTIRMA, DƏRDLƏŞMƏ, ANLAMA, ANLAŞMA var, anlamaq dəyər verməkdir, anlayan insan olar, göz yaşlarını silər, məzlumların əlindən tutar, anladığı qədər insan olar;***

***- oruc adlı tərbiyə proqramında TƏRAVİH NAMAZI var, müsəlmanlar ancaq Ramazan ayında təravih namazı qılarlar, bu namaz orucun bərəkətini artırar;***

***- oruc proqramında ETİKAF İBADƏTİ var - etikaf Ramazan ayının son on günündə (on gün olması şərt deyil) zəruri ehtiyaclar istisna bütün dünyəvi əlaqələri kəsib var gücü ilə Allaha yönəlməkdir, dərin təfəkkür imkanıdır, arınmadır, bütün varlığı ilə Allaha təslim olma halının gerçəkləşdiyi zaman dilimidir;***

***- oruc proqramında min aydan daha xeyirli QƏDİR GECƏSİ var - Qədir gecəsi Qurani-Kərimin nazil olmağa başladığı gecədir, qədir, qiymət, dəyər gecəsidir, mesajı var: Qurani-Kərim nazil olduğu gecəni başqa gecələrdən seçir, ona dəyər qazandırır, bərəkətini artırır, ona özəl yer ayırır (Qədir surəsi var), yəni, ey insan, Qurani-Kərim sənin ağlına, qəlbinə, vicdanına, iradənə nazil olsa, Onu anlasan, Onun dəyərlərini həyatına daşısan, Allahın çox dəyərli qulu olacaq, iki dünyanın səadətinə qovuşacaqsan. Qurani-Kərim sözlərin soltanıdır, nazil olmağa başladığı gecəni Qədir gecəsinə - nurlu gecəyə, nazil olduğu ayı ayların soltanına çevirib, nazil olduğu insanı da mömin edər, onu tövhidə, ədalətə, barışa, mərhəmətə bağlayar;***

***- oruc proqramında BAYRAM var, bayram bizə sevinmə əxlaqını öyrədir, deyir ki, sevindir ki, sevinəsən, dəyər ver ki, dəyər qazanasan, paylaş ki, sevgi, xeyir, barış, mərhəmət çoxalsın, insanları sevindir ki, Allah da səni sevindirsin, yoxsulların mədəsini doyur ki, Allah da sənin ruhunu doyursun, bağlı qapıları aç ki, Allah da sənin ruhunun, ağlının, vicdanının, iradənin, cənnətin qapılarını açsın;***

***- oruc proqramı bir MÜƏLLİMDİR, bizə Allahı, insanı, varlığı, imanı, tövhidi, ədaləti, barışı, mərhəməti, bu dünyanı, axirəti öyrədir, ağıl, qəlb, vicdan və iradəmizi inşa edir, bizi cəhalətin pəncəsindən qurtarır, deyir ki, ey insan, dəyərin Allaha təslim olduğun qədərdir, təslim ol ki, azad olasan, azad ol ki, insan olasan;***

*Ardı var...*

***Sıracəddin Hacı***

"Həlak olanadək döyüşəcəyik, plan belə olub..."

# Putin tövbə edib monastra getməlidir

## "Sizin ölümdən sonra aqibətiniz dəhşətli olacaq, Sizi cəhənnəm əzabı gözləyir..."

**"Qələbədən sonra Sizinlə Yalta sahillərində qəhvə içmək keçir könlümdən..."**

*"Vladimir Vladimiroviç, mən İsa Peyğəmbərə inanan adam kimi, Sizə deyirəm: ruhunuz barədə düşünün. Sizin ölümdən sonrakı aqibətiniz dəhşətli olacaq. Düşünürəm ki, Sizi cəhənnəm əzabı gözləyir. Siz bütün bunları dayandıra bilərsiniz".*

Bu barədə *"QORDON"* internet nəşrinin təsisçisi Dmitri Qordona müsahibəsində ukraynalı hərbi icmalçı, Ukrayna prezidenti Ofisi rəhbərinin sabiq müşaviri Aleksey Arestoviç bəyan edib.

O, hesab edir ki, *"Allahın böyük lütfü ondan ibarətdir ki, hətta bütün həyatı boyu günahlar işlədən insan da hansısa məqamda tövbə edə bilər və öz həyatını, törətdiyi pisliklərı dəyişə bilər".*

*"Siz hələ ki, ayaqdasınız və bu şansınız qalır. Sonra daha mürəkkəb olacaq. Hələ ki, düşünməyə imkan var. Bütün bu müharibə, ilk növbədə güllələrimiz altında xalqınızın sonsuz ölümləri nəyin üzərində bərqərar olub? Rusiya və Ukrayna xalqları, ətrafda olan ölkələrin xalqlarını düçar etdiyiniz bütün bədbəxtliklər Sizin tək səfeh iradənizdən asılıdır. Onu dəyişin və hər şey yerbəyer olacaq. Vəssalam"*, - Arestoviç izah edib.

Onun sözlərinə görə, Putinin edəcəyi ən yaxşı şey prezident vəzifəsini tərk edib monastra getmək "və ya özəl həyata dönmək olardı".

*"Düşünürəm ki, bu, Sizin edəcəyiniz ən yaxşı şey olardı. Əgər Siz açıq şəkildə tövbə etsəniz...Birincisi, dünyada gələcək siyasətçilər üçün unikal nümunə olacaq və bununla da gələcək döyüş həvəskarlarının qarşısına hündür hasar çəkəcəksiniz. Çünki həmişə presedent olacaq və deyəcəklər: "Dayanın, dayanın". Bu, Siz tərəfdən savab iş olacaq. Yaxud da öz ruhunuzu getdikcə daha da ağırlaşdıracaq və cəhənnəmin dibinə gömüləcəksiniz. İnanın, oralar heç də xoş deyil. Bunu düşünün"*, - Arestoviç bəyan edib.



O, hesab edir ki, Putin Ukraynaya qarşı təcavüzünə görə tribunaladək sağ qalmayacaq.

*"Rusiyalılar Zelenskini sağ ələ keçirə bilməyəcəkdilər, o, əlində avtomat həlak olacaqdı..."*

Arestoviçin sözlərinə görə, Zelenski hərbi müdaxilənin əvvəlində Kiyevi tərk etməkdən imtina edib və əllərində silah müdafiə olunmağa hazır olub.

Rusiyalı işğalçıların Zelenskini əsir götürmək və təslim olmaq haqqında sazişi imzalamağı vadar etmək imkanı olub.

Qordon tammiqyaslı hərbi müdaxilənin əvvəlində rusiyalı işğalçıların nəzərdən keçidiyi bir neçə ssenarini açıqlayıb. Onlardan biri bundan ibarət olub ki, Ali Radanın deputatlarını avtomatların lüləsi altında iclaz zalına toplamaq və təslimçiliyə səs verməyə vadar etmək olub.

*"Prezident Zelenski silahlıların əhatəsində bu təslimçilik alktını imzalayır"*, - Qordon deyib.

*"Onu deyə bilərəm ki, Zelenskini sağ ələ keçirə bilməyəcəkdilər, o, əllərində avtomat həlak olacaqdı. Bu, tamamilə aydın olub. Mən axı bilavasitə onun ətrafında olmuşam".*

O, deyib ki, Zelenskinin bütün ətrafı döyüşmək qərarı verib və bu, onların yeganə hərəkət planı olub.

*"Həlak olanadək döyüşəcəyik. Plan belə olub"*, - Arestoviç vurğulayıb.

O, həmçinin deyib ki, şəxsən Zelenski ilə danışıb, ona Kiyevdən *"daha yaxşı qorunan məntəqəyə"* köçürülməsi, öz təhlükəsizliyinin qorunması və prosesləri idarə etməsini təklif edib, lakin onun kəskin etirazı ilə qarşılaşıb.

*"Mən ona deyirdim ki, biz qaçmırıq, niyə həlak olaq ki? Nə qədər imkan var, ərazilərimizi müdafiə edərik, Kiyevi zəbt etsələr, daha qərbə doğru vilayətlər uğrunda döyüşərik, bütün ölkəni zəbt edərlərsə, partizan müharibəsinə başlayarıq. Təslim olmaq olmaz, döyüşəcəyik. Bunun üçün isə lider, rəmz lazımdır. O, mənə deyib: "Bir dəfə də bunu eşitsəm,vəssalam, biz işləməyəcəyik". Bundan sonra biz dedik: "Okey. Hamımız bir yerdə ölürük?" -*

*"Bəli, hamımız bir yerdə, əllərimizdə silah ölürük"*, - Arestoviç xatırlayıb.

"Düşünürəm ki, Putin tribunaladək sağ qalmayacaq. O, intihar edəcək"

Qordon soruşub ki, Arestoviç *"Putinlə, məsələn, tribunalda görüşmək"* istəyirmi?

*"Mənə elə gəlir ki, o, sağ qalmayacaq. Rusiyada bu, mümkün deyil. Heç kim onu təhvil verməyəcək. Ona görə də Rusiyanın ucsuz-bucaqsız ərazilərində yoxa çıxacaq. Və böyük ehtimalla həyatına intiharla son qoyacaq. Utandığından"*, - eks-müşavir deyib.

İşğaldan azad ediləndən sonra mən ilk olaraq Yaltaya gedəcəyəm. Dörd nəfər üçün-mən, Feyqin, Siz və Podolyak üçün masa təklif edirəm.

*"İşğaldan azad ediləndən sonra mən ilk olaraq Krıma gedəcəyəm. Yalta, Sevastopol sahillərinə. Mən, sadəcə, orada sizinlə, Mişa Podolyakla bir fincan qəhvə içməliyəm . Daha kimlər olacaq? Mən dörd nəfərlik masa təklif edirəm: mən, Feyqin, Siz və Podolyakla Yalta sahillərində qəhvə içmək üçün"*, - Arestoviç deyib.

# "Biz Rusiyanın soyqırım sistemini demontaj edəcəyik..."

*"Ukrayna Silahlı Qüvvələri torpaqlarımızın işğaldan azad edilməsinə hazırlaşır..."*

Beynəlxalq Cinayət Məhkəməsinin köməyilə işğalçıları Ukraynada törətdiyi hərbi cinayətlərə görə məsuliyyətə cəlb etmək mümkün olacaq

Ukrayna Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Ukrayna ofisinin açılışına hazırlaşır.

Bu barədə Ukrayna prezidenti Vladimir Zelenski növbəti videomüraciətində deyib.

*"Bu gün müxtəlif formatlarda, bu və ya digər dərəcədə biz Ukrayna və ukraynalılar üçün ədalət naminə işləmişik. Beynəlxalq Cinayət Məhkəməsinin prokuroru Kərim Xan ölkəmizdə səfərdədir. Bu təsisat və şəxsiyyət, heç şübhəsiz, rusiyalı cinayətkarların məsuliyyətə cəlb edilməsində tarixi rol oynayır"*, - Ukrayna lideri deyib.

Zelenski əmindir ki, Ukrayna xalqına qarşı "Rusiyanın soyqırım siyasətinin" onu düşünən, təsdiq edən və gerçəkləşdirənlərin hamısı üçün mütləq qaçılmaz hüquqi nəticələri olacaq.

*"Mən vurğulamaq istəyirəm: söhbət təkcə icraçılardan deyil, terrorçu dövlətin ali siyasi və hərbi rəhbərliyindən gedir. Bu gün biz bu barədə Kərim Xanla Kiyevdə görüşümüz zamanı danışmışıq"*, - o, vurğulayıb.



## "Ukrayna uşaqları və böyüklərinin deportasiya edilməsi cinayətlərinə xüsusi diqqət yetirilir..."

Ukrayna prezidenti deyib ki, işğalçıların hüquqi məsuliyyətə cəlb edilməsi "mürəkkəb iş" olacaq. Buna baxmayaraq o, əmindir ki, Ukrayna məhz hüququn aliliyi müstəvisində və məhz beynəlxalq məhkəmənin gücü ilə Rusiyanın cinayətlərinə cavabı təmin edə biləcək. Zelenski əmindir ki, bu, həm ukraynalılar, həm də digər xalqlar üçün gələcək uzunmüddətli təhlükəsizlik zəmanətlərindən biri olacaq.

*"Beynəlxalq Cinayət Məhkəməsinin Ukrayna ofisinin açılışı yaxınlaşır. Ukrayna Beynəlxalq Cinayət Məhkəməsi və Baş Prokurorunun Ofisi ilə artıq səmərəli əməkdaşlıq edir"*, - Ukrayna lideri bəyan edib.

Zelenski əlavə edib ki, rusiyalıların Ukrayna uşaqları və böyüklərinin deportasiya edilməsi kimi cinayətlərinə xüsusi diqqət yetirilir.

*"Rusiyanın bütün bu soyqırım sisteminivintciklərindən arxitektorlarınadək demontaj edəcəyik və qanuni hökmlərədək gedib çıxacağıq"*, - o, vurğulayıb.

Zelenski İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİK) Rusiya aktivlərinin Ukraynaya dəymiş ziyanın kompensasiyasına yönəldilməsi üzrə işə qoşulmağı təklif edib

*"Bu gün İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının baş katibi Matias Korman ilə görüşmüşəm. Bu, dünyanın qabaqcıl ölkələrini birləşdirən ən güclü qlobal təşkilatlardan biridir. O ölkələrin ki, orada insanlar həqiqətən yaşamaq istəyir"*, - Ukrayna lideri deyib.

Onun sözlərinə görə, *"bizim məqsədimiz Ukraynanın bu təşkilata tam hüquqlu üzvü kimi qoşulması, habelə İƏİT-nin təcrübəsindən dövlətimizin modernləşdirilməsində istifadə etməkdir".*

*"Bu gün o cümlədən ukraynalılar üçün şəffaf, sadə, biznesin stimullaşdırılması ilə iqtisadi inkişaf və sosial ədalət arasında balansı saxlayan ədalətli vergi sistemi barədə danışmışıq"*, - prezident qeyd edib.

Məlumat verilir ki, Zelenski Kormanla görüşü zamanı İƏİT-yə Rusiya aktivlərinin Rusiya təcavüzünün vurduğu ziyanın kompensasiya edilməsinə yönələn işə qoşulmağı təklif edib.

*"Ukrayna Silahlı Qüvvələri fəal surətdə torpaqların işğaldan azad edilməsinə hazırlaşır"*

Zelenski Ali Baş Komandanın stavkasının geniş tərkibdə iclasından danışıb.

O, deyib ki, ən ağır döyüşlər əvvəlkitək Donetsk vilayətinin Baxmut rayonunda gedir.

*"Bu günkü iclasda cəbhə istiqamətlərinin hər birindəki vəziyyət müzakirə edilib, biz bunun təfərrüatları ilə məşğuluq"*, - prezident deyib.

O, əlavə edib ki, Baxmut ətrafında gedən döyüşlər şəhərin müdafiəsi üçün çox əhəmiyyətlidir.

*"Rusiya insanları ümumiyyətlə hesaba almayaraq onları daima mövqelərimizin hücumuna göndərir. Mən bir misal deyim. Biz stavkanın iclaslarını həftədə iki dəfə keçiririk. Sonuncu iclas cümə axşamı olub. Bu gün Quru Qoşunlarının komandanı general Sırski məruzə edib ki, sonunci iclasdan keçən müddət ərzində onun istiqamətində düşmənin 800 nəfər canlı qüvvəsi məhv edilib"*, - Zelenski qeyd edib.

Prezident təsdiq edib ki, Ukrayna Silahlı Qüvvələri əkshücuma hazırlaşır.

*"Döyüşçülərimizi torpaqlarımızın azad edilməsi naminə aktiv əməliyyatlara qayıtmağa hazırlaşırıq. Bizim ədalətli məqsədimiz yadımızdadır və hər gün onun gerçəkləşməsinə yaxınlaşırıq. Ukrayna azad olacaq. Bütün Ukrayna azadlığa qovuşacaq"*, - Zelencki əminliyini ifadə edib.

# Ukrayna müharibəsi necə başa çata bilər?

## Bir ilin tamamında yaranan vəziyyətin analizi nəyi göstərir




Müharibə böyük humanitar fəlakət gətirib. Keçmişdə çiçəklənən şəhərlər - Mariupol, Severodonetsk dağıdılır, Baxmut, Soledar praktiki olaraq yer üzündən silinir. Milyonlarla ukraynalı qaçqın düşüb.

Rusiya ilə Qərb koalisiyası arasında yüksək intensivlikli hibrid müharibə gedir. Münhen Konfransının göstərdiyi kimi, Qərb Rusiyaya qarşı müharibə apardığını, Ukrayna ordusunun bu müharibədə sadəcə köməkçi alət olduğunu gizlətmir. Bu hibrid müharibənin əsas məzmunu iqtisadi münasibətlərin dayandırılmasını və Rusiyanı son iki onilliyin yeni reallığından - SWIFT, sosial şəbəkələr, neft nəqli kimi qlobal infrastrukturdan ayırmaq cəhdini ifadə edən sanksiyalardır.

Müasir qlobal şəraitdə biznesin və ölkənin mövcudluğu ilk növbədə sivilizasiyanın çərçivəsini təşkil edən infrastruktur şəbəkələri ilə qarşılıqlı əlaqədən asılıdır. Bu müddət ərzində onlarla belə qlobal şəbəkə formalaşıb. Böyük bir ölkəni həmin qlobal şəbəkələrdən ayırmağa çalışmaq unikal məqamdır.

### Qərb Sivilizasiyasının Böyük Konsolidasiyası

Gördüyümüz kimi, ABŞ və Aİ arasında mübahisələr praktiki olaraq dayanıb. Onlar indi vahid mövqedən çıxış edirlər. Hətta 50 il neytral ölkə olan Finlandiya, 150 ilə yaxın neytral ölkə olan İsveç, 400 ilə yaxın neytral ölkə olan İsveçrə kimi dövlətlər öz suverenliklərindən imtina ediblər. İsveç və Finlandiya hərbi ittifaqa qoşulduqlarını açıqlayıblar, İsveçrə də Rusiyaya qarşı sanksiyalara qoşulub. Qərb sivilizasiyasının konsolidasiyası baş verir və bu, güclü bir ittifaqdır. Hərçənd, bu konsolidasiya Qərb sivilizasiyasının bəşəri dəyərlərə verdiyi əhəmiyyəti azaltdığını göstərir.

Amma Qərb ölkələrinin tələbini dinləməkdən və Rusiyaya qarşı hərtərəfli sanksiyaların tətbiqindən imtina edən ölkələr də var. Onların əksəriyyəti neytral, bəziləri isə hətta Rusiyaya münasibətdə xeyirxah mövqe tutur. ABŞ avropalı tərəfdaşlarını tamamilə özünə tabe etdirdiyi üçün mövqelərini gücləndirib və Ukraynadakı proksi rejimin formalaşdırılmasında yüksək effektivlik nümayiş etdirib.

Mühüm olan Ukraynanın siyasi sisteminin özünü təsdiq edə bilməsidir. O, çox güclü çıxdı və ciddi zərbələrə tab gətirdi. Zelenski və komandasının üzvləri gözlənildiyinə rəğmən, qaçmadılar. Ordu, təhlükəsizlik xidməti, eləcə də kütləvi informasiya vasitələri də xeyli güclü çıxdılar, əhalinin ictimai şüuruna nəzarət edirlər. İnsanlar əziyyət çəkir, lakin onlar Ukrayna hakimiyyətinin bütün aksiya və fəaliyyətlərində iştirak edirlər. Təəccüblüdür ki, insanlar övladlarına öz dillərində dərs oxumağı qadağan edən hökumət üçün canlarını verməyə hazırdırlar. Övladlarına ulu babalarının cinayətkar, əclaf olduğunu deyən, ulu babalarını öldürənlərin isə əsl qəhrəman olduğunu söyləyən hakimiyyətdən ötrü canlarını verirlər.

Ukrayna hakimiyyət sisteminin, “Homo Maydanus” Ukrayna cəmiyyətinin nə olduğunu başa düşmək o deməkdir ki, belə bir süni siyasi sistem, proksi-rejim gələcəyin müəyyən elementidir və digər xalqlar da bunu yaşamalı olacaqlar.

Rus ordusunun zəifliyi də önəmlidir. Bəli, Ukrayna ordusu gözləniləndən qat-qat güclü, Rusiya ordusu isə gözləniləndən xeyli zəif çıxdı. O, Krımda olduğu kimi Ukraynanın ərazisinə nəzarəti ələ keçirə, Ukrayna ordusunun əhəmiyyətli hissəsini məğlub edə, ümumiyyətlə, cənubda ilk iki həftə istisna olmaqla bir il ərzində heç bir həqiqi uğurlu hərbi əməliyyat keçirə bilmədi. Rusiya cəmiyyətinin bütün dünyanın gözü qarşısında orduya zireh, dəbilqə, fənər, əsgər toplaması, təbii ki, Rusiya ordusunun təchizatında çox ciddi fundamental sistem zəifliyindən xəbər verir. Təchizat isə ordunun döyüş qabiliyyətinin əsas amillərindən biridir.

Bir tərəfdən Qərbin tam konsolidasiyası baş verdi, digər tərəfdən, gözlənilmədən Çin Rusiyanın müttəfiqinə çevrilmədi. Lakin neytrallığa sadiqdir, Rusiya ilə ticarəti aktiv şəkildə inkişaf etdirsə də, heç bir silah tədarük etmir. Gözlənilmədən Türkiyə Rusiyanın əsas faktiki müttəfiqi oldu, həm biznesin, həm də vətəndaşların anti-Rusiya sanksiyalarından yan keçən əsas axınları məhz Türkiyə vasitəsilə gerçəkləşdirilir. Amma Türkiyə rəsmi olaraq Ukraynaya da yardım edir.

Səudiyyə Ərəbistanı Krallığı və Birləşmiş Ərəb Əmirlikləri bitərəf qalsalar da, Rusiya üçün xeyirxah neytral mövqe tutdular. Onlar amerikalıların və avropalıların Rusiyanın neft və qaz bazarlarını ələ keçirməklə bağlı təklifindən imtina etdilər, anti-Rusiya sanksiyalarına qoşulmurlar və sanksiyalardan yan keçən Rusiya biznesinin əhəmiyyətli bir hissəsini reallaşdırırlar.

Ərzaq və pərakəndə satış bazarındakı vəziyyət qlobal bazarların kövrəkliyini göstərdi. Qlobal bazarlar sanksiyalarla bağlı taxıl və enerji təchizatındakı fasilələrə zəif reaksiya verir. Əgər həqiqi böyük iqtisadi müharibə olarsa, qlobal bazarlar necə reaksiya verəcək? Onlar sadəcə dözə bilmir, dağılırlar, odur ki, yüz milyonlarla insanın müasir həyat sistemi çökə bilər.

Əsas nəticə ondan ibarətdir ki, bəşəriyyət nüvə müharibəsinə doğru irəliləyib. Dünya zaman-zaman nüvə enerjisi ritorikasından istifadə edən, bir-birini azacıq, bütün dünyanı isə ciddi şəkildə qorxudan iki nüvə fövqəldövlətinin proksi müharibəsini dəhşətlə izləyir. Minlərlə yaşayış məntəqəsində nüvə partlayışları üçün nəzərdə tutulan sığınacaqlar yoxlanılır, nüvə müharibəsi ehtimalı ilə ehtiyatlar yenilənir.

### Vəziyyət hansı istiqamətdə inkişaf edə bilər?

Ən bariz ssenari budur ki, hər şey indi olduğu kimi davam edəcək. Bu ehtimal kifayət qədər yüksəkdir. Artıq bir ildir davam edən zəhlətökən müharibə 10 il də gedə bilər. Axı ABŞ və Avropa ölkələri müharibədə bilavasitə iştirak etmirlər, onların xərcləri çox deyil, hətta müəyyən dərəcədə iqtisadi yeniləşməyə təkan verir. Bəli, onlar Kiyevə çoxlu silah verirlər, lakin bu onlara eyni zamanda silah arsenallarını təkmilləşdirməyə, iqtisadiyyatı hərbi sifarişlərlə stimullaşdırmağa imkan yaradır.

Rusiya bütün tarixi boyu sübut edib ki, uzun illər çətin, gərgin vəziyyətə dözə bilir. Hətta müəyyən dərəcədə bu, Rusiya üçün normal şəraitlərdən biridir. Ağır böhran, çoxlu sayda aparıcı dövlətlərlə şiddətli müharibə Rusiyaya öz böyük potensialından istifadə etməyə imkan yaradır.

Ukrayna üçün daha çətindir. Son bir ildə təqribən 100.000 ölüm halı təxmin edilir. Amma Ukrayna buna daha 10-20 il dözəcək. Bu, bir milyona yaxın insanın ölümü demək olsa da, ölkənin asanlıqla tab gətirə biləcəyi bir şeydir. Hazırkı siyasi rejiminin indi çox sərt olduğunu nəzərə alsaq, heç bir etiraz aksiyası da prinsipcə mümkün deyil. Ukraynanın öz iqtisadiyyatına ehtiyacı yoxdur, onu Qərb koalisiyasının güclü iqtisadiyyatı tamamilə dotasiya edir.

Koreya variantına əsasən, heç bir sülh sazişi həyata keçirilmir, lakin faktiki təmas xəttində hərbi əməliyyatlar sadəcə dayandırılır və vəziyyət iqtisadi-siyasi qarşıdurma şəraitinə keçir. Koreya variantını, şübhəsiz, hər kəs real şəkildə müzakirə edir.

Rusiyanın qələbəsi tam və ya natamam ola bilər. Rusiyanın tam qələbəsi Ukrayna ərazisinin bir hissəsinə nəzarəti ələ keçirmək, qalan hissəsini özü üçün heç bir təhlükə törətməyən, nə vaxtsa Rusiya ilə yaxşı münasibətlər qura biləcək neytral ölkəyə çevirmək deməkdir.

Rusiyanın natamam qələbəsi Ukrayna ərazisinin əhəmiyyətli bir hissəsinin nəzarət altına alınması, kiçik bir hissəsinin isə düşmənçiliyə davam etməsi deməkdir.

### Rusiyanın məğlubiyyəti

Natamam məğlubiyyət Rusiyanın geri çəkilməsi, Ukraynanın keçmiş regionlarının bir hissəsini itirməsi, eyni zamanda, Ukraynanın anti-Rusiya ovqatında qalaraq xeyli güclənməsi deməkdir.

Rusiyanın tam məğlubiyyəti baş verərsə, ondan Krımdan imtina etməyi və çox ciddi təzminat ödəməyi tələb edəcəklər. Üstəlik, siyasi rejimdə dəyişiklik və hazırkı ali siyasi rəhbərliyin həbsi baş verəcək.

***Darya Qrevtsova***
***Rusiyalı politoloq***

## Rusiya təhlükəsinə qarşı həmlə: Qonşu ölkə hərəkətə keçdi



**Rusiya-Ukrayna müharibəsinin başlamasından sonra təhlükəsizlik tədbirlərini artıran Finlandiya Rusiya ilə sərhədində çəkilməsi planlaşdırılan 200 kilometrlik hasarın tikintisinə başlayır.**

Finlandiya Sərhəd Mühafizə Xidmətindən verilən açıqlamada ölkənin şərqində, Rusiya sərhədində yerləşən İmatra keçid məntəqəsinin hər iki tərəfində üç kilometr uzunluğunda hasarın qurulması üçün meşə təmizləmə işlərinə başlanıldığı bildirilib. Yolun tikintisi və hasar çəkilişinə gələn ay başlanacağı, 3 kilometrlik pilot layihənin iyunun sonunadək hazır olmasının gözlənildiyi deyilib.

70 kilometrlik hasarın tikintisini 2025-ci ilə qədər tamamlamağı hədəfləyən Finlandiya təxminən 380 milyon avroya Rusiya ilə 1300 kilometrlik sərhədinin 200 kilometrini hasarlamağı planlaşdırır. Gecəgörmə kameraları, işıqlar və təhlükəsizlik kameraları ilə təchiz olunacaq hasarın xüsusilə həssas yerlərdə hündürlüyünün 3 metrdən çox olacağı gözlənilir. Finlandiya sərhədləri hazırda heyvanların qarşı tərəfə keçmələrinin qarşısını almaq üçün yüngül taxta hasarlarla əhatə olunub.

Rusiyada səfərbərliyin elan edilməsindən sonra qonşu ölkələr Rusiya vətəndaşlarının axını ilə üzləşib. Bundan sonra Estoniya, Latviya və Polşa da Rusiya ilə sərhədlərində təhlükəsizliyi artırıb.

# ABŞ səfirliyində partlayış törədən psixi xəstə



## “Alfa”nın yarımçıq əməliyyatı, Andropovun tərifnaməsi

**SSRİ-nin ən elit xüsusi təyinatlı dəstəsi sayılan “Alfa” qrupu 1974-cü ildə DTK sədri Yuri Andropovun təşəbbüsü ilə yaradılıb. Yaradılan zaman şəxsi heyəti cəmisi 30 nəfərdən ibarət olun qrup ilk illərdə əsasən mühafizə işlərinə cəlb edilib. Sovet rəhbərlərini ölkədaxili və xarici səfərlərdə, həmçinin xarici ölkələrin siyasi liderlərinin SSRİ-yə səfərləri zamanı onları müşayiət ediblər. Bununla yanaşı, “Alfa” təyin olunmuş yerlərdə siyasi məhbusların dəyişdirilməsi tədbirlərində də iştirak edib.**

*“Alfa”* qrupu ilk dəfə ehtimal olunan terror aktının qarşısının alınması əməliyyatını 28 mart 1979-cu ildə həyata keçirib.

Həmin gün günorta saatlarında ABŞ-ın Moskvadakı səfirliyindən DTK-ya zəng daxil olub, bildirilib ki, bir adam partalıdıcı maddə ilə səfirliyin ərazisindəki konsulluq binasına daxil olub. Bu məlumat Andropova məruzə edildikdən sonra DTK sədri terror törədəcəyi ehtimal olunan şəxsin zərərsizləşdirilməsinə *“Alfa”* qrupunu cəlb edib.

Saat 14.30-da Ukraynanın Xerson şəhərinin sakini olan Yuri Vlasenko ABŞ səfirliyinin buraxılış məntəqəsinin mühafizəçilərinə səfirlik əməkdaşlarının onu qəbul etməyəcəyi təqdirdə partlayış törədəcəyini bildirib. Hadisəyə soyuqqanlı yanaşan mühafizəçilər dərhal məsələ ilə bağlı səfirliyin əməkdaşlarını məlumatlandırıblar. Səfirliyin ikinci katibi məsələyə aydınlıq gətirmək üçün Vlasenko ilə görüşə gedib. Amma buraxılış məntəqəsində tərəflər qarşılıqlı anlaşmaya gələ bilməyiblər. Vlasenkonun aqresiv hərəkətləri amerikalılardan kifayət qədər ehtiyatlı olmağı tələb edib. Vəziyyəti az da olsa yumşaltmaq üçün Vlasenkonu konsulluğun binasına dəvət ediblər.

Vlasenkonun ilk tələbi onun ABŞ-a getməsini təmin etmək olub. O bildirib ki, yerli məmurlar onun instituta qəbul olunmasına əngəl törədiblər. Bu səbəbdən də o, Amerikaya getmək, orada yaşamaq, təhsil almaq və işləmək arzusundadır. Səfirlik əməkdaşları məsələyə aydınlıq gətirəcəklərini vəd etsələr də, Vlasenko sakitləşməyib və əvvəlkindən fərqli tələblər irəli sürməyə başlayıb, səfirliyin xidməti avtomobili ilə hava limanına getmək, uçuşa hazır olan təyyarəyə minmək və külli miqdarda pul.

Fərqli, anlaşılmaz tələblər və üzərindəki böyük həcmdə olan partlayıcı maddə səfirlik əməkdaşlarını çıxılmaz vəziyyətdə qoyanda, onlar DTK ilə əlaqə saxlamağı qərarlaşdırıblar.

Beləliklə, *“Alfa”* qrupunun əməkdaşları hadisə yerinə yollanıblar. Onlardan biri danışıqlara gedərkən özünü SSRİ Xarici İşlər Nazirliyinin əməkdaşları kimi təqdim edib. Birinci danışıq cəhdi heç bir nəticə verməyib. *“Alfa”* əməkdaşı söhbəti yumşaltdıqca Vlasenko daha da qəzəblənib və barmağını partlayıcı maddənin işə düşməsi üçün onun həlqəsinə keçirib.

İkinci dəfə danışıqlara hərbi libaslı *“Alfa”* əməkdaşları cəhd ediblər. Bu cəhd xeyli davam edib. Hətta Vlasenko onlara bir neçə şeir də söyləyib. *“Alfa”* şeir qiraətindən sonra qənaətə gəlib ki, Vlasenkonun psixoloji durumunda problem var. Bələləri ilə danışmaq isə çətin olur. Yəni, normal düşüncəyə sahib olmayan şəxs həmin həlqəni hər an çəkə bilər.

Qısa məşvərətdən sonra xüsusi təyinatlılar belə qərara gəliblər ki, bir nəfər Vlasenko ilə söhbət aparsın, onun fikrini partlayıcıdan yayındırmağa nail olsun və digər bir xüsusi təyinatlı isə binanın damından kəndirlə düşərək onu silahla zərərsizləşdirsin. Acaq psixoloji durumu problemli sayılan Vlasenko bu hiyləni anlayıb, otağın elə yerində dayanıb ki, pəncərədən onu silahla vurmaq mümkünsüz olub.

Bununla yanaşı, o, xüsusi təyinatlılarla söhbətdən imtina etməyib. Bu söhbət isə nə az, nə çox, düz 3 saat davam edib. Vlasenko sonda fikirlərini belə bildirib: ***“Siz yaxşı oğlanlarsınız. Mən sizi öldürməyəcəm, əlimdəkini partlatmayacam. Amma bir şərtlə ki, mənim tələblərimi yerinə yetirəsiniz. Mən başqa cür də hərəkət edə bilərəm. Tələblərim yerinə yetirldikdən sonra buraları yerlə-yeksan da edə bilərəm. Amma sizə görə bunu etməyəcəm...”***

Növbəti hansı addımın atılacağını düşünmək üçün xüsusi tyinatlılar pillələrlə aşağı enib qərar çıxarmağa gedəndə partlayış səsi eşidilib. Onlar dərhal geri qayıdıblar. Patlayıcı maddə təsadüf nəticəsindəmi, yaxud ehtiyatsızlıq ucbatındanmı işə düşüb. Bəlkə də Vlasenko özü bilərəkdən onu partladıb.

Xoşbəxtlikdən, üç hissədən ibarət olan partlayıcı maddənin biri tam olmayaraq partlayıb. Partlayış nəticəsində Vlasenko yeindəcə həlak olub. Otaqdakı şkaf və digər avadanlıqlar da yararsız hala düşüb.

Sonradan o da məlim olub ki, həqiqətən də Vlasenkonun psixoloji durumunda ciddi problemləri olub.

Bu əməliyyatı Andropov yüksək qiymətləndirib. “Alfa”nın şəxsi heyətinə ünvanladığı təşəkkür məktubunda DTK başçısı bunları da qeyd edib: ***““Alfa” qrupunun şəxsi heyəti başa düşməlidir ki, o, xüsusilə təhlükəli düşmənlə qarşılaşmalı olacaq, təkcə cəsarət və güc tələb olunmur, həm də hərbi hiyləgərlik, hərəkətlərdə qətiyyət, mövcud vəziyyətə uyğun olaraq müstəqil qərarlar qəbul etməyə hazır olmaq ən vacib şərtlərdir. Amerika səfirliyində keçirilən əməliyyatda xüsusi təyinatlılar bu şərtlərin hamısına əməl etməklə öz vəzifə borclarını layiqincə yerinə yetirdilər. Mən DTK rəhbərliyi adından “Alfa”nın şəxsi heyətinə təşəkkür elan edirəm...”***

Əslində, həmin əməliyyatda tələskənlik, sərtlik nümayş etdirmək böyük itkilərə səbəb ola bilərdi. Ən azı tam işlək olmayan partlayıcı xüsusi təyinatlıların da həyatına son qoya bilərdi.

# Özbəkistanda intriqa yaradan, amma öz başı gedən komissar

## Apresyan Yusupova bata bilməyib

**1938-ci ilin mart ayında SSRİ-nin baş prokuroru Andrey Vışinskinin Özbəkistan KP MK-nın birinci katibi Usman Yusupovla telefon danışığı yarım saatdan artıq davam etsə də, tərəflər mübahisəli məsələyə aydınlıq gətirə bilməyiblər. Baş prokuror birinci katibi Özbəkistanda antisovet fəaliyyətlə məşğul olanlara qarşı ciddi mübarizə aparmamaqda ittiham edib, onu da bildirib ki, onun haqqında Kremlə daxil olan şikayət məktublarının sayı günügündən artmaqdadır.**

Özünü müdafiə etməyə çox da cəhd etməyən Yusupov Vışinskiyə bir cümlə ilə cavab verib:

- Nə qədər ki, siz, Moskva, Kreml Özbəkistana göndərdiyiniz kadrları öyrənməmiş vəzifəyə təyin edəcəksiniz, vəziyyət belə davam edəcək və yəqin bilməmiş deyilsiniz, partiya rəhbəri ittifaq miqyasında olduğu kimi, müttəfiq respublikalarda da bütün sahələrə nəzarət etmək səlahiyyətinə malikdir, o cümlədən prokurorluq və “NKVD” orqanlarına da.

Yusupov nəyə və kimə eyham vurub, hansı kadr təyinatını nəzərdə tutub? Bu telefon danışığından sonra birinci katibi təcili Moskvaya getməyə nə məcbur edib?

Əlbəttə, SSRİ-nin kadr siyasətinə beş barmağı kimi bələd olan Andrey Vışinski söhbətin kimdən getdiyini dərhal başa düşüb. Baş prokuror birinci katibin Özbəkistan “NKVD”-sinə rəhbərlik edən Derenik Apresyanın qaranlıq fəaliyyətindən narahatlığını anlayıb və bu narahatlığı aradan qaldırmaq üçün təcili tədbirlərin görülməsini zəruri sayıb.

Derenik Apresyan 1899-cu ildə Qazaxda anadan olub. 1917-1918-ci illərdə *“Daşnaksütyun”*un ən fəal üzvlərindən biri kimi tanınıb. Sonradan öz siyasi fəaliyyət istiqamətini böyük “çeviklikl ə” dəyişərək bolşeviklər partiyasına üzv olub. Sverdlov adına kommunist universitetini bitirdikdən sonra o, Moskvada Yanacaq Təchizatı İdarəsində nəzarətçi işləməyə başlayıb. Sonrakı fəaliyyətini partiya orqanlarında davam etdirən Apresyan 1927-ci ildə ordu kəşfiyyatında xidmətə qəbul edilib. Artıq 1936-cı ildə o, “NKVD”-də şöbə rəisi vəzifəsinə qədər yüksəlib.

1937-ci ilin noyabr ayında Apresyan Özbəkistanda *“NKVD”*-yə rəhbər təyin olunub. Bu təyinatla o, ətrafa özünü daha yaxından tanıdıb.

Özbəkistana gəlişi ilə intriqalar yaradan Apresyan respublikada özünü birinci fiqur kimi təqdim etməyə çalışıb. Hətta partiya rəhbərləri ilə rəsmi və qeyri-rəsmi münasibətlərdə onlarla hədə-qorxu ilə danışmaqdan da çəkinməyib. Sözsüz ki, onun yaratdığı belə bir gərgin mühit Özbəkistanın birinci katibini narahat edib. Yusupov bir neçə dəfə Apresyana xəbərdarlıq etsə də, erməni komissar öz fəaliyyətini özü bildiyi kimi davam etdirib. Bu cür münasibətlər birinci katiblə komissar arasında gərgin münasibətləri daha da dərinləşdirib.

Apresyan Yusupovu sıradan çıxarmaq üçün bütün mümkün variantlara əl atıb. *“NKVD”* zirzəmisinə düşənlərin hamısından Yusupova qarşı ifadələr alınıb. Bununla yanaşı, Apresyan Özbəkistandan Moskvaya kütləvi şəkildə birinci katib haqqında şikayət məktublarının yollanmasını da təşkil edib.



Kreml Özbəkistandakı vəziyyətdən xəbərdar olub. Qeyd edək ki, Yusupov həmin dövrdə müttəfiq respublikaların birinci katibləri arasında ən nüfuzlu rəhbərlərdən biri sayılıb. Ancaq buna baxmayaraq, Apresyanın *“fəaliyyəti”* Kremldə Yusupovun xidmətlərinə az da olsa, kölgə salmağa başlayıb. Bütün bunlara son qoymaq üçün isə Yusupov məsələni Moskvada birdəfəlik həll etməyi qərara alıb.

1938-ci ildə Beriya “NKVD”-nin birinci müavini vəzifəsində olanda Yusupov əvvəlcə onunla görüşüb. Beriya birinci katibə diqqətlə qulaq asıb və fikrini belə bildirib:

- Biz Qafqazda sovet hökuməti quranda Apresyan Moskvada benzin alveri edirdi.

Bu ifadə Apresyanın vəzifə karyerası və taleyi üçün kifayət edib.

Beriya və Vışınski məxfi şəkildə Apresyanın Özbəkistandakı fəaliyyətini araşdırdıqdan sonra ortaya daha ciddi məsələlər çıxıb. Apresyanın Özbəkistanda təkcə zəngin həyat tərzi, mütləq hakimiyyət ehtirası deyil, digər əməlləri də üzə çıxıb. Erməni komissarın həbsinə hazırlıq başlanıb və materiallar Stalinə təqdim edilib. Stalin sənədlərlə tanış olduqdan sonra qovluğun üzərinə dərkənar qoyub: *“Həbs edilsin...”*

Beləliklə, 20 noyabr 1938-ci ildə Apresyan Moskvaya dəvət olunub, “NKVD”-nin binasında onu həbs ediblər. O, Almaniya, İtaliya və Yaponiyaya casusluqda, terror aktlarının keçirilməsinə cəhddə ittiham olunub.

Dörd ay davam edən istintaqdan sonra SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası 15 fevral 1939-cu ildə onun haqqında güllənlənmə hökmü çıxarıb. Hökm həmin gün *“Kommunarka”*da icra edilib.

Ölümündən sonra ailə üzvləri Apresyanın bəraət alması ilə bağlı dəfələrlə müvafiq qurumlara müraciət ediblər. Amma bu müraciətlərə müsbət cavab verilməyib. Hətta belə müraciətlər SSRİ süquta uğrayandan sonra da davam etdirilib. Sonuncu dəfə isə Apresyana bəraət verilməsi ilə bağlı 2013-cü ildə Rusya Federasiyasının Ali Məhkəməsinə müraciət edilib. Məhkəmənin cavabı cəmi bir cümlədən ibarət olub: ***“Derenik Apresyanın bəraət alması məsələsi Ali Məhkəmənin iclasında müzakirə mövzusu ola bilməz...”***

Təqdim edən: İlham Cəmiloğlu

# Paralel

Son səhifə

www.paralel.az
e.mail adresi:
paralel_qazeta@mail.ru

№ 054 (3622) 2 mart 2023-ci il * İctimai-siyasi qəzet * Qiymәti 50 qәpik




## Dietik çayların faydasından çox ziyanı var

**Arıqlama çaylarını aptek və mağazalardan reseptsiz əldə etmək mümkündür. Həmin çaylar qaraciyər, böyrək daşı, kəskin mədə xəstəlikləri, həmçinin revmatizm və yüksək təzyiqdən əziyyət çəkənlər üçün çox təhlükəlidir.**

Artıq çəkidən azad olmaq üçün həmin üsuldan bəhrələnənlərin sayı ildən–ilə artır. İstifadəçilər arasında fayda gördüyünü deyənlər də, heç bir nəticə görmədiyini söyləyənlər də var. Hətta həmin diyetik üsuldan ciddi zərər görən, səhhətində problem yarananlar da az deyil. İşbazların müxtəlif ad və dizaynda istehsal etdiyi həmin çayların insan orqanizminə çox böyük zərəri var.

Həkim-dietoloq Vüsalə Şükürova deyib: *“Elə qida, elə çay yoxdur ki, insanı arıqlatsın. Diyetik çayların faydasından çox ziyanı var. Arıqlamağın bir yolu var ki, o da kalori çatışmazlığıdır, yəni qəbul edilən günlük kalori xərclənilən, sərf edilən kaloridən az olmalıdır. Artıq çəkidən əziyyət çəkənlərin sayı ilbəil artır. Ona görə bu sahədə fəaliyyət göstərən peşəkar mütəxəssisə müraciət edib fərdi qaydada qida rasionu tərtib etməklə tam qidalanmaqla və ac qalmadan, çay içib beyini uyuşdurmadan arıqlamaq mümkündür”.*

Dietoloqlar arıqlamaq arzusunda olanlara bir məsləhət də verirlər. Ən yaxşı pəhriz tətbiq oluna bilən pəhrizdir. Fədakarlıq öz yerində, ancaq bunu işgəncəyə çevirmək də olmaz. Diyetik çaylardan həkim məsləhəti olmadan istifadə etmək qətiyyən düzgün deyildir.

# Uşaqlarda qulaq ağrısı nədən yaranır?

**Qulaq ağrıları pediatriyada tez-tez rast gəlinən bir problemdir. Əsasən yeni doğulmuş körpə uşaqlarda müşahidə edilən qulaq ağrılarınının səbəbini çox zaman soyuq dəymə ilə əlaqələndirirlər.**

Maraqlıdır bəs, uşaqlarda qulaq ağrısının yaranma səbəblərinə nələr daxildir?

Bu barədə Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, həkim-pediatr Tərlan Əyyubov danışıb.

Onun sözlərinə görə, bu ağrılar həm travmalar, həm otitlər, həm gigiyenik qaydalara düzgün əməl olunmaması, qulaqda yad cisimlər və s. ilə əlaqədar ola bilər: Məsələn, uşağın qulağına xırda əşyaların salması və ya valideynlərin qulağı düzgün təmizləməməsi xarici qulaq keçəcəyinə travmalar törədə bilər. Xarici qulaq keçəcəyində yad cisim və ya ”qulaq kirinin” keçəcəyi tutması nəticəsində daxili qulaq və xarici mühit arasında təzyiqlər fərqinin yaranması təbil pərdəsinin gərginləşməsinə və ağrının yaranmasına səbəb ola bilər. Bundan başqa, həm xarici qulaq keçəcəyində (karbunkul, furunkul və s), həm orta qulaqda olan iltihabi proseslər (orta otit), ağrının yaranmasına səbəb ola bilər.



Uşaqlarda yuxarı tənəffüs yollarının infeksion-iltihabı xəstəlikləri (qrip və qripəbənzər hallar) zamanı qulaq ağrıları daha çox müşahidə edilir. Bu, uşaqlarda burun-boğazın anatomik quruluşu ilə əlaqədardır. Daxili qulağı burun-udlaqla birləşdirən yevstax borusu uşaqlarda üfüqi, geniş, qısa, böyüklərdə isə bir qədər şaquli, dar, uzun olur. Buna görə də burun-udlaqdan infeksiyanın orta qulağa keçib orta otit yaratma ehtimalı uşaqlarda daha çox olur. Bundan başqa burun-udlaqda olan iltihabi proses zamanı yevstax borusu ödəmlə əlaqədar tutula bilər və nəticədə həm qulaq ağrısı, həm effuzion otit (orta qulağa maye yığılması) yarana bilər.

Orta otitlər vaxtında müalicə olunmadıqda meningit, təbil pərdəsinin deşilməsi və digər eşitmə pozğunluqlarına, daxili qulağın iltihabına - labirintitə (qusma, ürəkbulanma, başhərlənmə, karlıq və s. ilə səciyyələnir), mastoiditlərə, beyin abseslərinə, sepsisə gətirib çıxara bilər. Nəzərə alsaq ki, uşaqların böyüməsində, inkişafında eşitmənin rolu böyükdür, bu problemlər nəticədə nitqin inkişafına və intellektin formalaşmasına da mənfi təsir göstərə bilər.

# Arıqlama dərmanları bu xəstəliklərə səbəb ola bilər



**”Arıqlama preparatları mədəaltı vəzin iltihablanmasına səbəb ola bilər”.**

Bu barədə terapevt Sarah Jarvis müsahibəsində bildirib. Onun sözlərinə görə, əsasən də arıqlamaq üçün istifadə edilən iynələr pankreatit və digər sağlamlıq problemlərinə gətirib çıxarır.

*"Artıq çəkili insanlar çox vaxt diabetik dərmanlara müraciət edir. Bununla onlar nifrət etdikləri piylərindən tez xilas olmağa çalışırlar. Ancaq bu zaman qidalanma pozğunluğu olan insanlar diqqətli olmalıdır. Çünki bu preparatlar, iynələr vəziyyəti daha da pisləşdirə bilər. Ümumilikdə bütün dərmanların xeyri kimi əks və yan təsirləri də var. Onlardan istifadə zamanı öd kisə problemləri, böyrək çatışmazlığı, allergiya və depressiya kimi hallar istisna edilmir"*, - Jarvis deyib.

Terapevt bildirib ki, dərmanların ən çox yayılmış yan təsirlərindən biri ağır pankreatitdir: *"Təhlükəli və ağrılı vəziyyət diabetik iynələrdən istifadə edən 500 nəfərdən birində baş verir. Bu iynələr yalnız pəhriz və fiziki fəaliyyət daxil olmaqla, bütün həyat tərzində dəyişikliyə səbəb olur. Dərmanı qəbul edən insanların təxminən yarısında bağırsaq problemləri, ürəkbulanma, şişkinlik, qəbizlik müşahidə olunur"* - Sarah əlavə edib.

Jarvis bu cür dərmanları yalnız arıqlama mütəxəssislərinin nəzarəti altında qəbul etməyi məsləhət görüb.

Onu da qeyd edək ki, həkim bəzi məşhur simaların internet üzərindən arıqlama dərmanlarını reklam etməsini də qınayıb. Onun sözlərinə görə, bu qəbuledilməzdir və qarşısı alınmalıdır.



## Qızartma üçün ən faydalı yağ

Dietoloq Ginzburq qızartma üçün ən yaxşı yağın hansı olduğunu açıqlayıb. O, bitki yağlarından alınan marqarinlərin istənilən heyvan yağından qat-qat zərərli olduğunu deyib: *"Əvvəllər belə hesab olunurdu ki, bitki yağları birmənalı olaraq sağlamdır, lakin heyvanlar yox. Sonra məlum oldu ki, yalnız bitki yağlarından alınan marqarinlər istənilən heyvan yağından qat-qat zərərlidir. Marqarində bol olan yağ turşularının trans izomerləri bilavasitə aterosklerozun erkən inkişafına və onun bütün ağırlaşmalarına, o cümlədən infarkt və insultlara gətirib çıxarır".*

Onun sözlərinə görə, çoxlu doymamış yağ turşuları (PUFA) ilə zəngin olan omeqa-6 yağlarının - günəbaxan və qarğıdalının zərərli olduğu halda, çox miqdarda istehlak edildiyi ortaya çıxıb. İcazə verilən norma gündə bir-iki çay qaşığıdır. Daha çox istehlak etsəniz, depressiya və ya Alzheimer xəstəliyi ilə nəticələnə bilər, bədəndəki iltihabın səviyyəsi artar.

*"Əlbəttə, hər kəs zeytun yağına keçə bilər. Amma zeytunu hamı sevmir, çoxları onun dadının çox kəskin olduğunu deyir"*, - diyetoloq bildirib.


Təsisçi:

Tapdıq Abbas

Baş redaktor:

Akif Nəsirli

Birinci müavin:

Şahnaz Salehqızı

İnformasiya şöbəsinin müdiri:

Röyal Əsədli

Bölgə müxbirləri:

Vaqif Cəmiloğlu
Sadıq Sadıqlı
İqbal Məmmədov
Əlizadə Nəhmədağaoğlu
İlkin Əsədzadə

Qəzet 16 fevral 2003-cü ildən çıxır.

Ünvan: AZ 1073, Azərbaycan, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, 6-cı mərtəbə “Azərbaycan” nəşriyyatı
Tel: **510 15 07**, Fax: **510 15 06**
E_mail: paralel_qazeta@mail.ru
*Qəzet “Son Dakika” MMC-nin mətbəəsində çap olunub.*
Əlyazmalara rəy verilmir və geri qaytarılmır.
Qeydiyyat №257
Sifariş: **2185** Tiraj: **1550**